

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 may 2026-cı il, çərşənbə axşamı № 086 (7153) Qiymət: 60 qəpik


# Bakıda rekord qıran WUF13!

## İlham Əliyev: Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq




Bax səh. 2

# Naxçıvandan Türküstana...

## TDT-nin 16 illik tarixi uğurlara köklənib

Bax səh. 4

## Dünyanın Azərbaycana böyük marağı

Azərbaycanın ev sahibliyi ilə baş tutan Ümumdünya Şəhərsalma Forumuna (WUF13) beynəlxalq səviyyədə böyük maraq var. Bunu qonaqların sayı da təsdiqləyir. Bu günlərdə Prezident İlham Əliyev tədbirdə iştirak etmək üçün respublikamıza təşrif gətirən ayrı-ayrı ölkələrin yüksəksəviyyəli nümayəndə heyətləri ilə çoxsaylı görüşlər keçirib.

Dövlətimizin başçısı ölkəmizdə səfərdə olan Bolqarıstan Prezidenti İliyana Yotovanı qəbul edib. Azərbaycan-Bolqarıstan əlaqələri qarşılıqlı hörmət və etimad üzərində qurulub. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən son 34 ildə siyasi, iqtisadi, mədəni və digər sahələrdə qarşılıqlı münasibətlər dinamik şəkildə inkişaf edib və gözəl nəticələr əldə olunub. Azərbaycanla Bolqarıstan arasında münasibətlər Prezident İlham Əliyevin 2015-ci ildə bu ölkəyə rəsmi səfəri zamanı imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə ilə keyfiyyətcə yeni səviyyəyə yüksəlib.

Bu gün Azərbaycan-Bolqarıstan əlaqələri çoxvektorlu səciyyə daşıyır. O cümlədən tərəflər arasında enerji əməkdaşlığı yüksək dinamikaya malikdir. Görüşdə "Həmrəylik Halqası" layihəsinin önəminə xüsusi diqqət çəkilib...

Bax səh. 3

## Xəyanətə qurban getmiş Laçın...




Bax səh. 5

## Şəhərsalmada biznesin üzərinə düşən vəzifələr

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Biznes Assambleyasının sessiyası keçirilib. "Ehtimallara qarşı çalışmaq: Mənzil dəyər zəncirində özəl sektor liderliyi" mövzusunda keçirilən sessiyada adekvat mənzil təminatı ilə bağlı planlaşdırma və mənzil dəyər zəncirinin transformasiyası istiqamətində müzakirələr aparılıb. Eyni zamanda, bu kritik inkişaf çağırışı istiqamətində qlobal iqtisadiyyatda ictimai fəaliyyətlə yanaşı, özəl sektorun potensialına dair fikir mübadiləsi olub. Biznes Assambleyası adekvat mənzil təminatı və mənzil dəyər zəncirinin transformasiyası prosesinə özəl kapitalın səfərbər edilməsi, risklərin aradan qaldırılması üçün strateji platforma rolunu oynayır.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Regional Proqram Bölməsinin direktoru Patrik Kanaqasinqham bildirib ki, Biznes Assambleyası çərçivəsində aparılan müzakirələr mütləq özəl sektoru, akademik dairələri və müxtəlifliyi əsas tərəfdaşlar kimi müəyyən edir. Əsas məqsəd özəl sektorun və biznes tərəfdaşlarının müxtəlifliyinin aydın şəkildə müəyyən edilməsi, biznes...

Bax səh. 4

## Dörd ayda 6 milyard dollardan çox...

Bax səh. 5

## Qlobal iqlim dəyişmələri böyük fəsadlara yol açır

Bax səh. 6

## Qlobal silahlanma: Kim nə qədər qazanır?



Bax səh. 6

## Müharibəyə davam, yoxsa...



Bax səh. 7

# Bakıda rekord qıran WUF13!









## İlham Əliyev: Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq

Mayın 18-də Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax Sessiyada iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladılar.

Qarşılanma mərasimindən sonra birgə foto çəkdirildi.

Sonra BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən hazırlanmış, WUF13-ün açılışına həsr olunmuş videoçarx nümayiş etdirildi və mədəni proqram təqdim olundu.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

### Prezident İlham Əliyevin ÇIXIŞI

-Zati-aliləri, xanımlar və cənablar, əziz qonaqlar.

Əvvəlcə mən Ümumdünya Şəhərsalma Forumunun bütün iştirakçılarını Bakıda salamlamaq və Foruma uğurlar arzulamaq istərdim. Biz yəqin ki, qeydiyyatdan keçmiş iştirakçıların rekord sayına nail olduq. Bu səhər mənə verilən məlumata görə, 182 ölkədən 45 mindən artıq qeydiyyata alınmış iştirakçımız var. Bununla belə, bu, ilyarım əvvəl Azərbaycanda keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbirdir və ümid edirəm ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq. Düşünürəm ki, Bakıda bu günlər ərzində, ilk dəfə ölkəmizə səfər edən qonaqların əksər hissəsi ölkəmizi və şəhərimizi daha yaxşı tanımaq, şəhərsalmanın inkişafı sahəsində Azərbaycanda görülən işləri öz gözləri ilə görmək imkanını qazanacaqlar.

Azərbaycan Avropa ilə Asiya arasında yerləşir və hər zaman Şərqin Qərb ilə qovuşduğu məkan olub. Bu, həmçinin ölkəmizin memarlığında əks olunub. Beləliklə, əgər siz Bakıda İçərişəhərin qədim divarları arasında gəzsəniz, sonra bircə küçəni keçsəniz, özünüzü tamamilə müasir mühitdə hiss edəcəksiniz - vaxtilə üç kilometr olmuş Bakı Bulvarı hazırda 15 kilometrdən artıq tanınmış dənizkənarı məkandır.

Daha sonra isə Avropa memarları tərəfindən layihələndirilmiş və tikilmiş XIX əsrə aid binalar var. Bir sözlə, Bakıda, qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bu, həqiqətən əcdadlarımızın istedadının bariz nümunəsi, tarixi və memarlıq irsimizi necə qoruduğumuzun təzahürüdür. Şəhərsalma nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox şəhərləri üçün gündəlik əsaslarla işlədiyimiz məsələdir.

Bu il mənim Sərəncamıma əsasən "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. Mən bu tədbirin təşkilinə verilən dəstəyə, əməkdaşlığa və Forumun 13-cü Sessiyasına ev sahibliyi etmək üçün bu cür çox məsuliyyətli vəzifənin bizə həvalə edildiyinə görə təşəkkürümü bildirmək istəyirəm. 2022-ci ildən etibarən biz BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycanda, uzun illər işğal altında olmuş şəhərlərdə - Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumlarını keçirmişik.

Bu gün qlobal toplantını təşkil edərək, biz şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə və onların özlərini rahat hiss etmələri üçün əhalimizin bütün lazımi şəraitlərlə təmin olunmasına güclü sadiqliyimizi bir daha nümayiş etdiririk. Nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox qədim şəhərləri öz memarlığı ilə fərəhlənə bilər. Mən onlardan bəzilərini qeyd edəcəyəm. Vaxtilə Şirvanşahlar dövlətinin paytaxtı olan və XIV əsrdə yazıb-yaratmış dahi Azərbaycan şairi Nəsiminin doğulduğu yerdə - Şamaxıda 743-cü ildə tikilmiş dünyanın ən qədim məscidlərindən biri var. Bir vaxtlar Atabəylər dövlətinin paytaxtı olan, dahi memar Əcəmi Naxçıvaninin vətəni Naxçıvanda onun tikdiyi XII əsrə aid Möminə xatun türbəsi var. Dünyanın ən qədim şəhərlərindən biri olan, XII əsrdə yaşayıb-yaratmış digər dahi Azərbaycan şairi Nizami Gəncəvinin vətəni Gəncə bu gün Bakı kimi inkişaf edir və tarixi simasını qoruyur. Qafqaz Albaniyası dövlətinin paytaxtı Qəbələdə və əsas şəhərlərdən biri olan Şəkidə çoxsaylı tarixi abidələr var. Şəki şəhərinin yaxınlığında yerləşən Kiş kəndindəki kilsə ola bilsin, dünyadakı ən qədim kilsələrdən biridir. Əcdadlarımızın istedadını nümayiş etdirən digər bir misal Lahıc kəndidir. On beş əsr bundan əvvəl kənd yaradılanda insanlar bu gün də işləyən kanalizasiya sistemini və su xəttini çəkmişlər. Demək olar ki, 30 il ərzində işğal altında qalan Qarabağın tacı Şuşa indi sıfırdan yenidən qurulur və onun zədələnmiş qalası bərpa edilib.

Bizim əcdadlarımız tərəfindən tikilənlər təkcə mənim qeyd etdiyim abidələr deyil. Əlbəttə ki, VI əsrə aid Qız qalası ilə Bakı, işğala, dağıntılara və talana məruz qalan abidələr müxtəlif nəsillərə aid azərbaycanlılar tərəfindən yenidən tikilib və bərpa olunub, eyni zamanda, qorunaraq bu günədək saxlanılıb. Qeyd etdiyim bütün bu abidələri hər kəs ziyarət edərək görə bilər, onların içərisinə daxil olaraq onlara toxuna bilər. Hesab edirəm ki, bu, bizim tarixi irsimizə, mirasımıza münasibətimizin ən yaxşı göstəricisidir. Biz bununla fəxr edirik. Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq. Bizim vəzifəmiz bunları növbəti nəsillər üçün qoruyub saxlamaqdır və mən əminəm ki, növbəti nəsil də eyni cür edəcək.

Bu gün xüsusilə paytaxt şəhərlərində şəhər inkişafına olan bu zərurəti tam anlayışla qəbul edərək cəsarətli və ehtiyatlı olmalıyıq. Mən bunu bəzən Bakıdakı Formula 1 yarışı ilə müqayisə edirəm. Yeri gəlmişkən, Bakı Qran-Prisi şəhər halqasında keçirilən çox azsaylı yarışlardandır. Ən sürətli əsas yolda sürət saatda 300 kilometrdən çox olur, sonra isə pilotlar əyləcə basaraq bolidlərini eni yeddi metr olan küçəyə sığışdırmalıdırlar və bunu da qədim qala divarlarından bir metr məsafədə etməlidirlər. Beləliklə, pilotlar liderlər, qərar qəbul edənlər və inkişaf gündəliyini irəli aparanlar kimi cəsur və ehtiyatlı olmalıdırlar. Biz inkişafda, insanlarımız üçün daha yaxşı şəraitin yaradılmasında, müasirləşmədə cəsur olmalıyıq. Lakin eyni zamanda, tarixi irsimizin qorunmasına gəldikdə, çox ehtiyatlı olmalıyıq.

İndi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir. Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı "Qafqazın Xirosiması" adlandırırdılar. Çünki şəhər, sadəcə, mövcud deyildi. Şəhər tamamilə yerlə-yeksan edilmişdir və o, Xirosimadan fərqli olaraq, atom bombasının atılması nəticəsində bir günə bu vəziyyətə düşməmişdir. Bu, 30 illik işğal ərzində edilmişdir və bu zaman binalar, tarixi binalar və ictimai binalar, evlər tamamilə sökülərək dağıdılmışdır.

Beləliklə, hazırda Böyük Qayıdış Proqramı həyata keçirilir, şəhər və kəndlərin Baş planları hazırlanır. Mən, əlbəttə ki, çox rəqəm gətirə bilərəm, lakin yalnız ikisini qeyd edim. Artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Bütün bunlar cəmi beş il ərzində inşa olunub.

Yalnız dağıtmaq, məhv etmək və əziyyətlər vermək üçün gələnlərdən fərqli olaraq, məhz torpağın yiyələri bu cür davranırlar. Bu gün 85 mindən artıq azərbaycanlı keçmişdə işğal altında olmuş ərazilərdə yaşayır. Onlar işləyir, yaşayır, təhsil alır və onların məşğulluğu hökumətimizin ən mühüm hədəflərindən biridir.

Bununla belə, onlar üçün mənzillər və fərdi evlər, məktəb və xəstəxanalar tikmək üçün, əlbəttə, biz minalardan təmizlənməni aparmalı idik, lakin eyni zamanda, biz məşğulluq haqqında düşünməliyik. Həmin sahələrdə artıq salınmış və salınacaq çoxsaylı sənaye zonaları öz torpağında yaşamaq kimi fundamental hüququndan məhrum olmuş yüz minlərlə insanın sürətli qayıdışına birmənalı dəstək olacaq.

Bakı haqqında danışsaq, bir neçə əlavə məsələni də qeyd edim. Biz ətraf mühit sahəsində çox işləri görməli olduq. Bakı hələ 1846-cı ildə dünyada ilk dəfə neft hasil etmiş şəhər olub və sonra 180 il ərzində demək olar ki, bütün illərdə ətraf mühitin qorunmasına sıfır dərəcə riayət edilib. Beləliklə, Bakı çox çirklənib və Bakının Qara şəhər, Bibiheybət və Böyükşor kimi bəzi hissələrini qeyd etsəm, ola bilsin, əcnəbilər üçün bu, bir məna kəsb etmir. Lakin əgər vaxt tapıb həmin yerləri ziyarət etsəniz, bəzi videomateriallara və ya şəkillərə baxsanız, onların 20 il öncə və indi necə göründüyünü başa düşərsiniz və Bakıda ətraf mühitə uyğun məkanın yaradılması üçün görülmüş işləri təsəvvür edərsiniz. Çox çirklənmiş Qara şəhər əvəzinə bu gün şəhərsalmanın nümunəsi olan Ağ şəhəri görə bilərsiniz. Yeri gəlmişkən, o, çirkləndiyinə görə Qara şəhər adlanırdı. Bu, şəhər daxilində bir şəhər idi. Şəhərsalmanın digər təzahürü "Sea Breeze" istirahət məkanıdır və mən müsafirlərimizə, xüsusən də soyuq suda üzməyi sevənlərə oraya getməyi çox tövsiyə edirəm.

Onlardan bəzilərinin burada zalda əyləşdiyini görürəm və bu müasir şəhərsalmanın digər misalını gedib görmək olar. Son 20 il ərzində biz Bakıda 100 park və ictimai yer, bağlar yaratmışıq. Onların 19-u tam yenilənib. İctimai nəqliyyata, mikromobilliyə, metro və elektrik enerjisi ilə işləyən müasir avtobuslara sürətli çıxışı olan və ətraf mühitə uyğun şəhərlər paytaxt və nəinki paytaxt üçün, bütöv konsepsiyanın tərkib hissələri kimi icra olunur.

Söylədiyim kimi, Azərbaycanın bir çox yerlərində şəhərsalma çox sürətli inkişaf edir. Birmənalı olaraq, bu cür mühüm toplantı və BMT-dən olan dostlarımızın, səfərə gələn çoxsaylı qonaqların ekspert bacarıqları bizə daha çox öyrənmək, bir-birimizdən əldə etmək, müsbət təcrübə ilə tanışlıq üçün və həmçinin səhvlərimiz haqqında danışmaqda yardımçı olacaq. Şəhərsalma prosesində çox səhvlər olub və düşünürəm ki, həmin dövr artıq keçmişdə qaldı. Mən vaxtınızı çox almaq istəmirəm.

Mən, həmçinin Bakının bələdçisi kimi danışa bilərəm, lakin düşünürəm ki, sizin üçün onları öz gözünüzlə görsəniz daha yaxşı olar. Mən Bakıda bütün qonaqlara xoş səfər arzu edirəm, Ümumdünya Şəhərsalma Forumuna uğurlar diləyirəm. Sağ olun.

x x x

Sonra BMT-nin Baş katibi Antonio Quterreşin və BMT Baş Assambleyasının prezidenti Annalena Berbokun açılış mərasiminə ünvanladıqları videomüraciətləri nümayiş etdirildi.

BMT-nin Baş katibi müraciətində Ümumdünya Şəhərsalma Forumunun məqsədləri reallığa çevirmək üçün bir təkan olacağını vurğuladı.

BMT Baş Assambleyasının prezidenti Annalena Berbok isə dedi: "Bu tədbir, həmçinin mənzil böhranı ilə bağlı fəaliyyətləri gücləndirmək üçün də imkan yaradır".

# 41-ci iclasın Protokolu imzalandı

## İlham Əliyevin Gürcüstanın Baş naziri ilə görüşü olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 18-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşü olub.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu ilin aprelində Gürcüstana dövlət səfərini məmnunluqla xatırladı, bu səfərin münasibətlərimizin möhkəmlənməsi işinə verdiyi töhfəni qeyd etdi. Prezident İlham Əliyev bu gün imzalanacaq sənədlərin əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətinə toxundu.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən qonaq Azərbaycanda olmaqdan xüsusi məmnunluq hissi keçirdiyini dedi.

Prezident İlham Əliyevə Gürcüstana dövlət səfəri etdiyinə görə minnətdarlığını bildirən İrakli Kobaxidze bu səfərin hər kəsdə dərin təəssüratlar oyatdığını vurğuladı.

Qonaq Azərbaycan ilə Gürcüstanın bir çox ölkələr üçün bağlantılar baxımından vacib rol oynadığını qeyd etdi və gələcəkdə bu istiqamətdə əməkdaşlığın daha da dərinləşdirilməsinin önəminə toxundu.

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan Prezidentini təbrik edən İrakli Kobaxidze tədbirin dünya şəhərsalma gündəliyini müzakirə etmək üçün yaxşı platforma olduğunu dedi.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Görüşdə ölkələrimiz arasında mehriban qonşuluq və dostluğa əsaslanan münasibətlərin bir çox istiqamət üzrə dinamik inkişafına toxunuldu, ikitərəfli gündəliyimizin çox geniş olduğu qeyd edildi. Siyasi, iqtisadi-ticari, enerji, nəqliyyat, logistika, sərmayələr və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu bildirildi. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrin möhkəmlənməsində rolu vurğulandı.



Sonra Prezident İlham Əliyevin və Baş nazir İrakli Kobaxidzenin iştirakı ilə Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında təbii qazın Gürcüstana təchizatı barədə Saziş, Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Gürcüstana elektrik enerjisinin təchizatı və elektrik enerjisinin Gürcüstan ərazisi vasitəsilə tranziti barədə Saziş və "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası, inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının Protokolu imzalandı.

# Azərbaycan “vahid Çin” siyasətini daim dəstəkləyir

## İlham Əliyev Çin Dövlət Şurasının Baş nazirinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq, ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını Azərbaycan Prezidentinə çatdırdı. O qeyd etdi ki, Si Cinpin Prezident İlham Əliyevi Çinin dostu kimi dəyərləndirir.



Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev dedi ki, Çin Xalq Respublikasının Sədrinin onu Çinin daimi dostu adlandırmasını yüksək qiymətləndirir.

Can Quoçin BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında qlobal urbanizasiya gündəliyi ilə bağlı aktual mövzuların müzakirə edildiyini bildirdi, tədbirdə iştirak etməkdən şərəf hissi duyduğunu dedi və ölkəsində bu foruma mühüm əhəmiyyət verildiyini vurğuladı. O, ölkəmizin belə bir mötəbər tədbirə ev sahibliyi etməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Qonaq, həmçinin forumun açılış mərasimində Azərbaycan Prezidentinin çıxışının çox məzmunlu olduğunu dedi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Çinin bu tədbirdə yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunmasını Azərbaycana hörmət və dostluq əlaməti kimi qiymətləndirdi.

Azərbaycan-Çin əlaqələrində sürətli artımı məmnunluqla qeyd edən qonaq dövlət başçılarının görüşlərini xatırladı, münasibətlərimizin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə çatdığını dedi.

O, Çinin Tayvan regionu ilə əlaqədar Azərbaycanın qətiyyətli mövqeyinə görə təşəkkürünü bildirdi. Çinin də Azərbaycanın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü daim dəstəklədiyini vurğuladı.

Can Quoçin qeyd etdi ki, Çin Azərbaycanın xalqın maraqları əsasında seçdiyi inkişaf yolunu dəstəkləyir.

Prezident İlham Əliyev Çinə dövlət səfərini məmnunluqla xatırladı və göstərilmiş qonaqpərvərliyə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı bu səfər zamanı imzalanmış hərtərəfli strateji tərəfdaşlıq sənədinin önəmini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın vaxtilə separatizmdən əziyyət çəkən ölkə kimi separatizmin bütün forma və təzahürlərini pislədiyini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz Çinin Tayvan regionunda keçirilmiş qanunsuz seçkiləri nəinki tanımayıb, hətta onun pislənilməsi bəyanatı ilə çıxış edən yeganə dövlətlərdən biri olub. Prezident İlham Əliyev bu xüsusda vurğuladı ki, Azərbaycan “vahid Çin” siyasətini daim dəstəkləyir.

Söhbət zamanı müxtəlif sahələri əhatə edən Azərbaycan-Çin münasibətlərinin uğurlu inkişafı vurğulandı.

Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında əlaqələr qeyd olundu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyi vurğulandı. Azərbaycanla Çin arasında iqtisadi-ticari əlaqələrin genişlənməsindən məmnunluq ifadə olundu, siyasi, iqtisadi, tranzit, nəqliyyat, yükdaşımaları, hərbi-texniki tərəfdaşlıq və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Bakı-Daşkənd: bütün sahələrdə əməkdaşlıq uğurla inkişaf edir

## Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Şavkat Mirziyoyevə Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak etdiyinə görə minnətdarlığını bildirdi və qeyd etdi ki, Özbəkistan Prezidentinin burada olması dövlətlərimiz və xalqlarımız arasında qardaşlıq və dostluq əlaqələrinin göstəricisidir.



Şavkat Mirziyoyevlə görüşlərini xatırladan Prezident İlham Əliyev bu görüşlər əsnasında müzakirə olunmuş layihələrin həyata keçirildiyini dedi.

Dövlətimizin başçısı Bakıda Özbəkistan parkının inşasını da qeyd etdi.

Dost və qardaş Azərbaycanda olmaqdan məmnunluğunu bildirən Şavkat Mirziyoyev BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi, bu tədbirin şəhərsalma mövzusuna həsr olunan mühüm qlobal məsələlərin müzakirəsinə imkan yaratdığını vurğuladı və dəvətə görə təşəkkür etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Ölkəmizə hər səfərində inkişafın şahidi olduğu deyən Özbəkistan Prezidenti Azərbaycanın Qarabağda yeni şəhərlər və kəndlər saldığını məmnunluqla vurğuladı və bunu Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış uğurlar kimi qiymətləndirdi.

Şavkat Mirziyoyev dedi ki, dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizin qazandığı uğurlar, Vətən müharibəsində qazanılan Qələbə Prezident İlham Əliyevin səylərinin və Vətənə, xalqa sevgisinin nəticəsidir.

Xoş sözlərə görə təşəkkür edən dövlətimizin başçısı Qarabağın bərpasında Özbəkistan Prezidentinin göstərdiyi dəstəyi qeyd etdi. Bu xüsusda vurğulandı ki, Füzulidə Özbəkistan tərəfindən inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb Qarabağın bərpası prosesində ilk hədiyyə olub. Prezident İlham Əliyev bunu qardaşlığın, dəstəyin və həmrəyliyin təcəssümü kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycan Prezidentinin Özbəkistana, Özbəkistan Prezidentinin isə ölkəmizə səfərləri, həmçinin görüşləri məmnunluqla xatırlandı.

Dövlət başçılarının verdikləri tapşırıqlara uyğun olaraq iki ölkə arasında həyata keçirilən iqtisadi layihələr bir daha nəzərdən keçirildi, onların icrasından məmnunluq ifadə olundu. Bu xüsusda energetika, mədən sənayesi, kənd təsərrüfatı, maşınqayırma sənayesi, əczaçılıq və digər sahələrdə olan layihələrə toxunuldu.

Ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik xarakteri daşıdığı vurğulanaraq, bütün sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu.

# Dünyanın Azərbaycana böyük marağı









Azərbaycanın ev sahibliyi ilə baş tutan Ümumdünya Şəhərsalma Forumuna (WUF13) beynəlxalq səviyyədə böyük maraq var. Bunu qonaqların sayı da təsdiqləyir. Bu günlərdə Prezident İlham Əliyev tədbirdə iştirak etmək üçün respublikamıza təşrif gətirən ayrı-ayrı ölkələrin yüksəksəviyyəli nümayəndə heyətləri ilə çoxsaylı görüşlər keçirib.

Dövlətimizin başçısı ölkəmizdə səfərdə olan Bolqarıstan Prezidenti İliyana Yotovanı qəbul edib. Azərbaycan-Bolqarıstan əlaqələri qarşılıqlı hörmət və etimad üzərində qurulub. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən son 34 ildə siyasi, iqtisadi, mədəni və digər sahələrdə qarşılıqlı münasibətlər dinamik şəkildə inkişaf edib və gözəl nəticələr əldə olunub. Azərbaycanla Bolqarıstan arasında münasibətlər Prezident İlham Əliyevin 2015-ci ildə bu ölkəyə rəsmi səfəri zamanı imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə ilə keyfiyyətcə yeni səviyyəyə yüksəlib.

Bu gün Azərbaycan-Bolqarıstan əlaqələri çoxvektorlu səciyyə daşıyır. O cümlədən tərəflər arasında enerji əməkdaşlığı yüksək dinamikaya malikdir. Görüşdə “Həmrəylik Halqası” layihəsinin önəminə xüsusi diqqət çəkilib.

Azərbaycan-Bolqarıstan əlaqələrinin genişlənməsinə Heydər Əliyev Fondu da davamlı töhfələr verir. Görüşdə Prezident İliyana Yotova Heydər Əliyev Fondunun Bolqarıstanda “Trapezitsa” Memarlıq Muzeyi Qoruğunun bərpasına göstərdiyi dəstəyə görə bir daha minnətdarlığını bildirib.

Azərbaycan Prezidenti İlham Əliyevlə Serbiya Prezidenti Aleksandar Vuçiç arasında baş tutan görüşdə dövlətimizin başçısının bu ilin fevralında Serbiyaya rəsmi səfəri məmnunluqla xatırlanıb. Belqrada səfərin gündəliyi zəngin olub. Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının ilk iclası keçirilib.

İki ölkə arasında enerji əməkdaşlığı artıq nəzərəçarpacaq nəticələrə malikdir. Görüşdə xalqlarımızın yaxınlaşdırılması və turizm potensialımızın möhkəmləndirilməsi baxımından Serbiyanın “Airserbia” şirkətinin Belqrad-Bakı marşrutu üzrə birbaşa uçuşlar həyata keçirməsinin əhəmiyyətinə toxunulub.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueini qəbul edib. Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında tarixi köklərə, mənəvi dəyərlərə, ənənələrə əsaslanan möhkəm dostluq münasibətləri uğurla inkişaf edir. Xüsusilə də getdikcə genişlənən enerji əməkdaşlığı böyük perspektivə malikdir. Söhbət zamanı strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərimizin genişləndiyi məmnunluqla qeyd edilib, əməkdaşlığın müxtəlif istiqamətlərdə, həmçinin siyasi, iqtisadi, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələr üzrə inkişafı vurğulanıb.

Dərin tarixi zəmin üzərində möhkəmlənən Azərbaycan-Türkmənistan münasibətləri bu gün region üçün də nümunəvi sayılacaq yüksək səviyyəyə çatıb. Döst ölkə Azərbaycanın işğaldan azad eddilmiş ərazilərinin bərpasına öz töhfəsini verir. Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidentinin yanında Arkadağ şəhərinin Tikinti üzrə Dövlət Komitəsinin sədri Deryageldi Orazov arasında baş tutan görüşdə dövlətimizin başçısı Füzulidə Türkmənistan tərəfindən məscidin tikilməsi təşəbbüsünə görə bir daha təşəkkürünü bildirib və hazırda tikintinin davam etdiyini deyib. Deryageldi Orazov işğaldan azad edilmiş ərazilərimizə yenidən səfər edəcəyini və layihələrlə yerində tanış olacağını bildirib.

Prezident İlham Əliyevlə Keniya Respublikasının Prezidenti Uillyam Samoei Rutonun başçılıq etdiyi nümayəndə heyəti arasında baş tutan görüşdə ölkələrimiz arasında əlaqələrin dinamik surətdə inkişafından məmnunluq ifadə olunub. Qeyd edək ki, WUF ilk dəfə Keniyada keçirilib. Bu ölkə BMT-nin Məskunlaşma Proqramına (UN-Habitat) da ev sahibliyi edir. Görüşdə Azərbaycan ilə Keniya arasında enerji, müdafiə sənayesi, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu bildirilib, son dövrlərdə müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin əlaqələrimizin inkişafında müsbət rolu vurğulanıb.

Azərbaycan Prezidenti İlham Əliyevlə Esvatini Kralı Əlahəzrət III Msvatinin başçılıq etdiyi nümayəndə heyəti arasında baş tutan görüşdə dövlətimizin baaşçısı 180-dən çox ölkənin nümayəndəsinin iştirak etdiyi bu tədbirin dünyada şəhərsalma sahəsində aktual olan müxtəlif mövzuları müzakirə etmək, həmçinin təcrübə mübadiləsi aparmaq üçün çox yaxşı fürsət olduğunu bildirib. Görüşdə Azərbaycan ilə Esvatini arasında ikitərəfli əlaqələrin inkişafı, o cümlədən enerji, mədən sənayesi və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Bu gün Azərbaycanla Pakistan arasında münasibətlərin dərinləşməsinə həm dövlətlər səviyyəsində güclü siyasi iradə göstərrilir, həm də bunu cəmiyyətlər istəyir. Pakistanda Azərbaycana, respublikamızda isə dost ölkəyə böyük rəğbət var. Azərbaycan Prezidenti İlham Əliyevlə Pakistan İslam Respublikasının Pəncab əyalətinin Baş naziri Məryəm Nəvaz Şərifin başçılıq etdiyi nümayəndə heyəti arasında baş tutan görüşdə ölkələrimiz arasında qardaşlıq münasibətlərinin və strateji əlaqələrin inkişafından məmnunluq ifadə edilib, siyasi, iqtisadi, diplomatik, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub, regionlararası əməkdaşlığın inkişaf etdiyi vurğulanıb, ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu bildirilib. Azərbaycanın “ASAN xidmət” təcrübəsinə əsasən Pakistanda da mərkəzlərin yaradıldığı qeyd edilib. Dövlətimizin başçısı bu gün Azərbaycan-Pakistan əlaqələrinin üçtərəfli - Azərbaycan-Türkiyə-Pakistan formatında da inkişaf etdiyini diqqətə çatdırıb.

Müstəqil Azərbaycanla BMT-nin ayrı-ayrı strukturları, o cümlədən də Məskunlaşma Proqramı (UN-Habitat) arasında möhkəm əlaqələr qurulub. İndiyədək bu əməkdaşlıq çərçivəsində respublikamızda bir neçə dəfə milli şəhərsalma forumları keçirilib. Dövlətimizin başçısı ilə görüşdə BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax Bakıda WUF13-lə bağlı gördüyü işlərin onda dərin təəssürat hissi yaratdığını deyərək, bu mötəbər tədbirin təşkili ilə əlaqədar ölkəmizin tətbiq etdiyi innovativ yanaşmaları alqışladığını vurğulayıb. Anaklaudia Rossbax COP29-un Azərbaycanda yüksək səviyyədə keçirildiyini xatırladaraq, bunun ardınca ölkəmizdə WUF13 kimi tədbirin təşkilinin önəminə toxunub. O, COP və WUF-un BMT sistemində ən böyük tədbirlər hesab olunduğunu deyərək vurğulayıb ki, mahiyyət etibarilə Azərbaycan bu tədbirlər arasında əlaqə yaradıb.









Dövlətimizin başçısı Azərbaycanın Ümumdünya Şəhərsalma Forumu təcrübəsinin, həmçinin ölkəmizdə şəhərsalma sahəsində tətbiq olunan innovativ yanaşmaların, işğaldan azad edilmiş ərazilərimizdə postmünaqişə şəraitində genişmiqyaslı bərpa və quruculuq işlərinin aparılmasının digər ölkələr üçün də nümunəvi xarakter daşıdığını bildirib və ölkəmizin bu təcrübəni bölüşməyə hazır olduğunu deyib.

*Mübariz ABDULLAYEV*

# Naxçıvandan Türküstana...

Yeni qlobal nizamda özünə mühüm yer tutmuş, qısa müddətdə beynəlxalq aləmdə tanınmış, vacib iqtisadi-ticari layihələrin coğrafi keçid xəttini özündə birləşdirən Türk Dövlətləri Təşkilatı (TDT) ciddi addımları ilə seçilir. Dünya miqyasında ən önəmli geostrateji və geocoğrafi məkanlardan biri kimi tanınan və qəbul olunan Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya regionunun əlaqələndirilmiş siyasi-iqtisadi planları TDT-nin inkişafına xüsusi dəstək verməkdədir. Xüsusilə, 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirlərindən sonra bölgədə formalaşan yeni reallıqlar mühüm ticari çağırışları aktuallaşdırıb - bu fonda TDT-nin cəlbediciliyi daha parlaq şəkildə diqqəti cəlb edir.

TDT qısa zaman kəsiyində regionun ən nüfuzlu siyasi və iqtisadi platformalarından birinə çevrilməyi bacarıb. Uzun illər ərzində dövlətlərin mədəni və tarixi bağlar üzərində qurulan əməkdaşlığı bu gün TDT müstəvisində real siyasi, iqtisadi və təhlükəsizlik mexanizminə çevrilib. Təşkilatın fəaliyyət istiqamətləri təkcə türk dövlətləri arasında əlaqələri möhkəmləndirməklə məhdudlaşmır, həm də yeni dövrün regional inteqrasiya modelinə çevrilmək iddiasını ortaya qoyur. Artıq TDT regional güc olmaqla yanaşı, qlobal əməkdaşlıq formatlarının formalaşmasında da aktiv rol oynayır. Bu reallıq həm təşkilatın struktur baxımından çevik, həm də siyasi baxımdan dayanıqlı mexanizmlərə malik olduğunu göstərir. Xüsusilə son illərdə keçirilən görüşlərdə koordinasiyalı fəaliyyətin qurulması, qarşılıqlı əlaqələrin gücləndirilməsi və regional proseslərə vahid mövqe ilə yanaşılması təşkilatın praktiki təsir imkanlarını əyani şəkildə artırır.




**TDT-nin Türküstan Zirvəsi...**

Mayın 15-də Qazaxıstanın və bütün türk sivilizasiyasının ən qədim şəhərlərindən biri olan Türküstanda Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçıları Şurasının qeyri-rəsmi Zirvə görüşü keçirilib. Qeyd edək ki, Türküstan şəhəri xüsusi rəmzi məna daşıyır və Türk dünyasının möhkəmlənməsində yeni bir mərhələnin başlanğıcına çevrilməsi gözlənilir. Qazaxıstanın Türküstan şəhəri türk xalqlarının tarixi yaddaşında mühüm yer tutur. Türküstan əsrlər boyu mənəvi birlik, mədəni mübadilə və türk xalqları arasında ortaq sivilizasiya kimliyinin formalaşması məkanı olaraq qalıb. Bu gün həmin tarixi rəmz yeni siyasi və strateji meyar qazanır. Türküstanda Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün keçirilməsi üzv ölkələrin inteqrasiyanı təkcə praqmatik maraqlar üzərində deyil, həm də dərin mədəni və tarixi təməl üzərində qurmaq istəyini vurğulayır.

TDT-nin qeyri-rəsmi Zirvə görüşləri türk dövlətləri arasında siyasi etimadın, strateji koordinasiyanın və ortaq gündəliyin hazırlanmasının gücləndirilməsi nöqteyi-nəzərindən təsirli bir mexanizm olduğunu artıq sübut edib. Məhz bu kontekstdə Türküstanda keçirilən Zirvə görüşü də Türk dünyasının birliyinin, qarşılıqlı əlaqəsinin və ortaq gələcəyinin gücləndirilməsinə yönəlmiş kursun davamı kimi müstəsna əhəmiyyətə malikdir. Bu kurs iki il əvvəl Azərbaycanın mədəniyyət paytaxtı Şuşada effektiv şəkildə müəyyən edilib.

**Türküstan Bəyannaməsi...**

Türküstan Sammitinin yekunu olaraq Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Türküstan Bəyannaməsi imzalanıb. Bəyannamədə TDT ölkələrinin liderləri Azərbaycanın TDT-yə sədrlik etməsinə dəstək ifadə edərək ölkənin sədrlik dövrü üçün müəyyən etdiyi prioritetləri yüksək qiymətləndiriblər. Sənədə əsasən, imzaçılar 2025-ci il oktyabrın 7-də "Regional sülh və təhlükəsizlik" mövzusunda keçirilmiş Qəbələ sammitinin uğurla həyata keçirilməsini yüksək qiymətləndiriblər. "Azərbaycan Respublikasının cari sədrliyinə və onun müəyyən etdiyi prioritetlərə dəstəyimizi ifadə edirik, həmçinin Azərbaycanın sədrliyinin TDT-nin üzv dövlətlər arasında əməkdaşlığın səmərəli platforması kimi daha da gücləndirilməsinə töhfə verəcəyinə əminliyimizi bildiririk", - bəyannamədə deyilir.

Sammit iştirakçıları, həmçinin Türkiyəni 2026-cı il martın 7-də İstanbulda TDT Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi görüşlərinin və 2026-cı il aprelin 18-də 5-ci Antalya Diplomatik Forumu çərçivəsində keçirilən görüşlərin uğurla təşkili münasibətilə təbrik ediblər. Liderlər bu görüşlərin nəticələrini alqışlayıb və onların daha müntəzəm şəkildə təşkilinin vacibliyini vurğulayıblar.

Bundan başqa, imzaçılar rəqəmsal mühitdə vətəndaşların hüquqlarının müdafiəsinə dair normaları özündə əks etdirən Qazaxıstanın yeni Konstitusiyasının qəbul edilməsini alqışlayıblar ki, bu da ölkənin rəqəmsal dövrün müasir çağırışlarına cavab vermək və gələcək inkişaf üçün davamlı hüquqi baza yaratmaq öhdəliyini əks etdirir.

"Dövlət başçıları Rəqəmsal İqtisadiyyat sahəsində Tərəfdaşlıq Sazişinin (DEPA), türk böyük dil modelinin inkişafı üzrə Anlaşma Memorandumunun imzalanmasını, eləcə də "Rəqəmsal İpək Yolu" layihəsinin davam edən icrasını müsbət qiymətləndiriblər ki, bunlar birlikdə türk dünyasında texnoloji əməkdaşlığın və rəqəmsal qarşılıqlı əlaqənin gücləndirilməsinə töhfə verir", - sənəddə deyilir.

Dövlət başçıları 2025-ci il noyabrın 17-28-də Bakıda keçirilmiş Beynəlxalq Telekommunikasiya İttifaqının Telekommunikasiyaların İnkişafı üzrə Dünya Konfransının (WTDC-25) uğurunu qlobal rəqəmsal transformasiyanın irəliləməsinə, beynəlxalq əməkdaşlığın gücləndirilməsinə və inklüziv və davamlı rəqəmsal inkişafın təşviqinə mühüm töhfə kimi xüsusilə vurğulayıblar.

**Naxçıvandan başlanan yol...**

2021-ci ilə qədər Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adlanan təşkilatın fəaliyyətinin əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir. Bu təşkilat 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılıb. Təşkilatın yaranmasında əsas məqsəd üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsidir. 2021-ci ilin noyabrın 12-də Türkiyənin İstanbul şəhərində baş tutan Sammitdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının Türk Dövlətləri Təşkilatı olaraq dəyişdirilməsinə qərar verilib. Şimali Kipr Türk Cümhuriyyəti, Macarıstan və Türkmənistan isə qurumda müşahidəçi dövlət statusunda çıxış edirlər. Üzv ölkələrin dövlət rəhbərləri ildə bir dəfə rəsmi, bir dəfə də qeyri-rəsmi olaraq müxtəlif şəhərlərdə toplanır və TDT-nin çağırışları, regional predmetlər, real siyasi vəziyyət müzakirə olunur.

2009-cu ildən bəri Zirvə görüşlərinin beşi Azərbaycanda, dördü Türkiyədə, üçü Qazaxıstanda, üçü Qırğızıstanda, biri isə Özbəkistanda keçirilib.

**Özbəkistanın üzv olması ilə...**

2019-cu ildən sonra Türk Dövlətləri Təşkilatının güclənməsinin əsas amillərindən biri də Özbəkistanın təşkilata tamhüquqlu üzv qəbul edilməsi idi. Bölgənin ən çox əhalisi olan ölkəsinin üzvlüyü təşkilata yeni stimul verdi və onun siyasi çəkisini artırdı. 2022-ci il Səmərqənd Zirvə görüşü Türk Dövlətləri Təşkilatının institusional güclənməsinin rəmzinə çevrildi. Özbəkistanın təşəbbüsü ilə Türkdilli Dövlətlər Şurasının adı dəyişdirildi və onun beynəlxalq statusu artırıldı. Daşkənd, həmçinin üzv ölkələrin inteqrasiyasını dərinləşdirməyə yönəlmiş "Türk dünyası - 2040" strategiyasını təşviq edir.

Xüsusi vurğulanmalıdır ki, qısa zamanda özünü iqtisadi-siyasi konsepsiyası, ideoloji əsasları olan və ən əsası suveren, milli mənafeyə söykənən prinsiplərə malik təşkilat kimi sübut etməyi bacaran Türk Dövlətləri Təşkilatının əldə etdiyi uğurlar saymaqla bitməz. Bu inkişaf tendensiyasında maddi nailiyyətlərdən daha çox mənəvi nailiyyətlər göz oxşayır - vahid Türk dünyası ailəsi prinsiplərinin inkişaf etdirilməsi, qarşılıqlı maraqların qorunması üçün gücün və imkanların səfərbər olunması, fərqli cəhətlərin və ya coğrafyaların oturuşmuş siyasi birliklərinə qarşı bütün aspektlərdə müqavimətin yaradılması kimi prioritet hədəflər TDT-nin ali qurum statusunu daha da möhkəmləndirir.

**Bakı Türk birliyinin rəmzi mərkəzinə çevrilib...**

Qeyd olunduğu kimi, Türk Dövlətləri

## TDT-nin 16 illik tarixi uğurlara köklənib

Təşkilatı artıq regional əməkdaşlıq çərçivəsindən çıxaraq qlobal güc mərkəzinə çevrilmək yolunda real və davamlı addımlar atır. Bu yüksəlişin mərkəzində isə Azərbaycanın strateji liderliyi, iqtisadi təşəbbüsləri və siyasi qətiyyəti dayanır. Azərbaycanın təşəbbüsləri ilə formalaşan yeni reallıqlar - Şuşa, Qarabağ və Qəbələ bəyannamələri, enerji və nəqliyyat layihələri, müdafiə koordinasiyası türk dünyasının bütöv geosiyasi xəritəsini yenidən formalaşdırır. TDT artıq gələcəyin siyasi modeli kimi xarakterizə olunur: bərabərhüquqlu tərəfdaşlıq, iqtisadi dayanıqlıq, ortaq təhlükəsizlik və mədəni birliyin vəhdəti. Bu vəhdətin mərkəzində isə Azərbaycan dayanır - tarixini, gücünü və vizyonunu türk dünyasının sabahına çevirən ölkə kimi.

Azərbaycan Türk dünyasının müasir institusionallaşmasının əsas memarı kimi TDT çərçivəsində yeni əməkdaşlıq formatları, strateji təşəbbüslər və humanitar layihələr irəli sürür. Qarabağ Bəyannaməsi TDT daxilində iqtisadi inteqrasiyanın dərinləşdirilməsi, birgə infrastruktur və investisiya layihələrinin dəstəklənməsi, enerji, rəqəmsallaşma və iqlim siyasəti sahələrində əməkdaşlıq, Türk dünyasının mədəni və humanitar birliyinin gücləndirilməsi, üzv dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə dəstək verilməsi və TDT-nin regional təşkilat kimi beynəlxalq rolunun artırılması baxımından olduqca mühüm sənəd kimi təşkilatın gələcək yol xəritəsinə çevrilib.

**Türkoloji qurultayın 100 ili...**

Türk dünyasını birləşdirən ən mühüm amillər sırasında heç şübhəsiz ortaq dil, mədəniyyət və dəyərlərimiz ön sıralarda gəlir. Bu istiqamətdə də Azərbaycan hər zaman aparıcı və təşəbbüskar rol oynayıb. Bu fakt ötən il TDT-nin Qəbələ Zirvə Sammitində bir daha ortaya qoyuldu. Belə ki, Sammitdəki çıxışında Prezident İlham Əliyev bildirdi ki, ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir: "Burada 1926-cı ildə Bakıda təşkil edilmiş birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulamaq istərdim. Gələn il birinci Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif edirəm".

Vurğulayaq ki, Azərbaycan Prezidenti ötən ilin oktyabrın 22-də Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyevin imzaladağı bu Sərəncam Türk dünyasının ortaq kimliyinin yenidən bərpasına çağırışdır. Azərbaycan bu çağırışı XXI əsrin reallıqları fonunda gerçəkləşdirmək üçün həm ideoloji, həm elmi, həm də mədəni əsaslar yaradır. Türk dünyasının humanitar paytaxtı kimi Bakı bu gün dilin, ədəbiyyatın, incəsənətin və təhsil inteqrasiyasının yeni mərkəzinə çevrilib. Məhz bu mənəvi dayaqlar siyasi və iqtisadi əməkdaşlığa dərin mənalar qazandırır.

***P.İSMAYILOV***

# Şəhərsalmada biznesin üzərinə düşən vəzifələr

## Biznes Assambleyasının sessiyasında mənzil təminatı ilə müzakirələr aparılıb

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Biznes Assambleyasının sessiyası keçirilib. "Ehtimallara qarşı çalışmaq: Mənzil dəyər zəncirində özəl sektor liderliyi" mövzusunda keçirilən sessiyada adekvat mənzil təminatı ilə bağlı planlaşdırma və mənzil dəyər zəncirinin transformasiyası istiqamətində müzakirələr aparılıb. Eyni zamanda, bu kritik inkişaf çağırışı istiqamətində qlobal iqtisadiyyatda ictimai fəaliyyətlə yanaşı, özəl sektorun potensialına dair fikir mübadiləsi olub. Biznes Assambleyası adekvat mənzil təminatı və mənzil dəyər zəncirinin transformasiyası prosesinə özəl kapitalın səfərbər edilməsi, risklərin aradan qaldırılması üçün strateji platforma rolunu oynayır.

### Daha çox mənzil tikmək üçün nə lazımdır?

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Regional Proqram Bölməsinin direktoru Patrik Kanaqasinqham bildirib ki, Biznes Assambleyası çərçivəsində aparılan müzakirələr mütləq özəl sektoru, akademik dairələri və müxtəlifliyi əsas tərəfdaşlar kimi müəyyən edir. Əsas məqsəd özəl sektorun və biznes tərəfdaşlarının müxtəlifliyinin aydın şəkildə müəyyən edilməsi, biznes ictimaiyyətini irəli aparacaq əsas sektorlarda birləşdirməkdir. Beynəlxalq Daşınmaz Əmlak Federasiyasının (FIABCI) prezidenti Antonio Kampaqnoli isə daha çox mənzil tikmək üçün ölkələri və hökumətləri planlaşdırma, xidmətlərə əlçatanlıq, iqlim dəyişikliyinin təsirlərini nəzərə almağa çağırıb. Onun fikrincə, 2030-cu ilə qədər 3 milyard insan hökumətlərə, şəhərlərə, bazarlara və qurumlara təzyiq göstərərək təhlükəsiz, əlverişli və iqlimədavamlı mənzillərə çıxış tələb edəcək.

Digər ekspertlər də dünyada tikinti sektorundakı inkişaf və problemlərdən danışaraq bu sahədə transformasiya və səmərəliliyin artırılmasının, bu sahədə məlumatlara əsaslanan idarəetmənin və rəqəmsallaşdırmanın həyata keçirilməsinin əhəmiyyətini qeyd ediblər. Həmçinin, özəl sektorun bu prosesə cəlb olunması, "yaşıl infrastruktur" layihələrində texnologiya şirkətlərinin vacibliyinə diqqət çəkilib.

Binalar və Tikinti üzrə Qlobal Alyansın katibliyinin rəhbəri Gulnara Roll, "Holcim Azerbaijan"ın baş direktoru Serjiu Stoykov, dünyanın ən böyük alüminium istehsalçılarından biri olan "RUSAL" şirkətinin iqlim tənzimlənməsi və beynəlxalq karifikasiya departamentinin rəhbəri Aleksey Spirin və "SmatSyban" şirkətinin baş icraçı direktoru Parisa Kloss mənzil tikintisi dəyər zənciri üçün, eləcə də innovasiyalar və əməliyyat təcrübəsinin qlobal prioritetlərə uyğunlaşdırılması istiqamətində özəl sektorun siyasət öhdəliklərindən bəhs ediblər.




### Texnologiya transferinə zəmin, data-əsaslı qərarvermə

Ümumilikdə, "WUF13 sessiyası çərçivəsində keçirilən ilk görüşlər də təsdiqləyir ki, dövlət qurumları, beynəlxalq maliyyə institutları, texnologiya və tikinti şirkətləri, eləcə də şəhər planlaşdırılması üzrə aparıcı konsaltinq qurumları bir araya gələrək təcrübə mübadiləsi aparır, yeni tərəfdaşlıqlar qurur. Panel müzakirələri və ikitərəfli görüşlərdə səsləndirilən fikirlərdən də aydın olur ki, şəhərsalmanın rəqəmsal transformasiyası sadəcə texnoloji tendensiya deyil, həm də daha inklüziv və dayanıqlı inkişafa aparan yoldur. Bu quruculuqda data-əsaslı qərarvermə, "smart" şəhərlərin və vətəndaş yönümlü rəqəmsal platformaların inkişafı şəffaflıq və hesabatlılıq, habelə dayanıqlı şəhərsalma strategiyasının formalaşmasında xüsusi rol oynayır. Bu baxımdan biznes təmsilçilərinin bir araya gələrək bu qlobal məsələləri dərindən təhlil etməsi və ideyalar irəli sürməsi xarici şirkətlərə ölkənin şəhərsalma strategiyası, investisiya mühiti və hüquqi çərçivəsi barədə birbaşa məlumat əldə etmək imkanı yaradır. Bu isə uzunmüddətli layihələrin formalaşmasına, birgə müəssisələrin yaradılmasına və texnologiya transferinə zəmin hazırlayır.

### Biznes icması üçün yeni imkanlar

WUF13 biznes müəssisələri üçün yeni imkanların yaradılması, praktik həll yollarının tapılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu tərəfdaşlıq çərçivəsində tikinti, sənaye, innovasiya, texnologiya və digər istiqamətlərdə çalışan peşəkar biznes icmaları bir araya gələrək real şəhərsalmada öz müasir inkişaf planlarını təqdim edir. Bakı Forumunda ilk dəfə mənzil təminatı sahəsində innovativ yanaşmaları təşviq etmək məqsədilə yeni bir komponent - Biznes və İnnovasiya Mərkəzinin təsis edilməsi isə şəhərsalma prosesinin bütün mərhələlərini (dəyər zənciri) əhatə edən praktik həlləri, icra üsullarını və tərəfdaşlıq əlaqələrini ön plana çıxarmaqda çevik mexanizm qurulması deməkdir. Mərkəz mənzil təminatının real təcrübədə necə həyata keçirildiyini göstərmək və səmərəli əməkdaşlıq və əlaqələndirmə üçün bir platforma yaratmaq məqsədi daşıyır, dövlət və özəl sektor nümayəndələrini, digər inşaat seqmentlərini maraqlı bir ideya ətrafında birləşdirir.

Bu platforma həm də kiçik və orta biznes müəssisələri, startaplar və biznes assosiasiyalarının da şəhərsalmada öz innovasiya, texnologiya imkanlarını nümayiş etdirməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Biznes və İnnovasiya Mərkəzində yeni yaradılmış şirkətlərin və gənc sahibkarların öz innovasiyalarını nümayiş etdirmələri üçün xüsusi məkanın - Startap Pavilyonunun təqdim olunması da məhz yeni ideyaları təşviq etmək məqsədi daşıyır. Dünyanın 10 ölkəsindən seçilmiş 14 startap layihəsinin iştirakı etdiyi bu Pavilyonun məqsədi yeni subyektlərin səsinə səs vermək və həm mənzil təminatının, həm də şəhərsalma problemlərinin həlli üçün miqyaslanan ideyaları ön plana çıxarmaqdır. Yeri gəlmişkən, bu prosesdə Azərbaycanın startapları da fəallıq nümayiş etdirməkdədir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyəti sədrinin müavini Rüfət Atakişiyevin fikrincə, ölkəmizin startaplarının təqdim etdikləri biznes ideyaları xarici ekspertlər tərəfindən maraqla qarşılanır. Kiçik və orta biznes subyektlərinin infrastruktur və tikinti layihələrində iştirakçılığı təkcə dayanıqlı şəhər infrastrukturunun qurulmasında rolunu artırmır, eyni zamanda, investorlar və beynəlxalq tərəfdaşlarla əməkdaşlığını təmin etməklə, yeni təşəbbüslərin ərsəyə gəlməsinə öz müsbət təsirlərini göstərir.

***E.CƏFƏRLİ***

# Xəyanətə qurban getmiş Laçın...

## Bir güllə belə atılmadan azad edilmiş rayon özünün yeni inkişaf mərhələsini yaşayır

1990-cı illərin əvvəlində yenicə müstəqillik əldə etmiş Azərbaycan çətin sınaqlarla üz-üzə qaldı. Bir tərəfdən erməni işğalı, digər tərəfdən isə daxili qarşıdurmalar ölkənin kövrək olan müstəqilliyini təhlükə qarşısında qoymuşdu. Hakimiyyətdə olan qüvvələrlə həmin dövrdə hakimiyyətə gəlmək üçün bütün xəyanətlərə getməyə hazır olan AXC-Müsavat birliyi nə dövlət, nə Vətən haqqında düşünmürdülər - onların yeganə məqsədi satqınlıq və xəyanət nəticəsində hakimiyyəti əldə etmək idi.

1992-ci ilin mayı isə Azərbaycanın müasir tarixinə xəyanətlərin və faciələrin əks olunduğu zaman kimi düşdü. Bu zamanda hakimiyyət savaşı, səriştəsiz insanların kreslo davası ard-arda ağır itkilərə yol açırdı. Məhz bu hakimiyyət çəkişməsinin və xəyanətin acı nəticəsi kimi mayın 18-də Azərbaycanın şərq qapısı, ən mühüm strateji əhəmiyyətli rayonlarından biri - Laçın rayonu ermənilər tərəfindən işğal olundu. İşğal nəticəsində yüzlərlə insan şəhid edildi, girov götürüldü, əlil oldu.

### Hakimiyyət hərisliyi...

Həmin dövrün acı mənzərəsinə diqqət yetirdikdə bir daha məlum olur ki, həmin “siyasi qüvvələrin” yalnız bir amalı vardı - hakimiyyət hərisliyi. Laçının işğalı xəyanətin və hakimiyyət hərisliyinin ortaya çıxardığı nəticə idi. Qeyd edək ki, 1992-ci ilin fevralında baş vermiş Xocalı soyqırımı həmin dövrdə mövcud hakimiyyəti devirərək iqtidarı ələ almağa çalışan Azərbaycan Xalq Cəbhəsi üçün mühüm fürsətə çevrildi. O dövrdə Azərbaycan prezidenti olan Ayaz Mütəllibov AXC-nin təzyiqi ilə 6 martda prezident vəzifəsindən istefa verdi. Növbəti prezident seçkilərinə qədər prezident səlahiyyətləri Ali Sovetin sədri Yaqub Məmmədova həvalə edildi. Müdafiə naziri vəzifəsi isə AXC-nin tələbi ilə bu qurumun üzvü olan Rəhim Qazıyevə verildi. Məhz həmin dövrdən başlayaraq AXC ölkədəki vəziyyəti sabotaj etməklə hakimiyyətə yiyələnməyə çalışırdı. AXC-yə başçılıq edən şəxslər ətraflarında yaratdıqları silahlı dəstələrdən quldurluq məqsədi ilə istifadə edir, onları cəbhədən geri çəkir və hətta bəzi regionlarda talançılıq ilə də məşğul olurdular. Bu isə 1992-ci il mayın 8-də Şuşanın işğalına yol açdı. Hərbi gücü əlində saxlayan AXC iqtidara gəlmək üçün strateji əhəmiyyət daşıyan şəhəri ermənilərə təslim etdi.

Şuşanın işğalının ardından isə ölkədəki siyasi vəziyyət daha kəskin hal aldı - böhran bütün istiqamətlərdə hiss olunurdu. 1992-ci il mayın 14-də Azərbaycan Ali Soveti yenidən iclas keçirdi və Ayaz Mütəllibov yenidən öz vəzifəsinə bərpa edildi. Vəzifəsinə bərpa edilmiş Mütəllibov isə Bakıda iki ay müddətinə fövqəladə vəziyyət rejimi tətbiq etdi. Amma Mütəllibov bərpa olunduğu vəzifəsində çox da qala bilmədi - onun prezident səlahiyyətlərinin bərpa edilməsini dövlət çevrilişi hesab edən AXC bu dəfə silahlı çevrilişə əl atdı. “AXC batalyonu” adlanan silahlı dəstələr 14 maydan 15 maya keçən gecədə cəbhə xəttindən geri çəkildi. AXC rəhbərlərinin başçılıq etdiyi qoşunlar, xüsusilə Laçın alayının çoxlu sayda əsgəri mövqelərindən geri çəkilərək Bakıya gətirildilər. AXC əvvəlcə Mütəllibova ultimatum göndərdi, lakin diplomatik mənbələr rus əsgərlərinin müdaxilə etməyəcəyini bildirdikdən sonra silahlı hücum başladı. 15 mayda, günorta saatlarında AXC-nin hərbi qolunun rəhbəri olan İsgəndər Həmidov zirehli texnika və əsgərlərdən ibarət kolonla Bakıya girdi. Silahlı dəstələr atəş aça-aça, eyni zamanda tanklar və zirehli maşınlar Milli Məclisin binasını mühasirəyə aldı. Ardınca silahlı dəstələr televiziyaya basqın etdi. Atışmada bir neçə adam həyatını itirdi, xəsarət aldı. Mütəllibov isə yenidən devrildi. Ayaz Mütəllibov çevrilişin növbəti günü Qala aviabazasından Moskvaya yola düşdü. Silahlı çevrilişdən sonra AXC hakimiyyətə yiyələndi. Amma bu siyasi hərislik daha böyük faciələrə yol açdı - mayın 18-də Laçın işğal edildi. Beləliklə, AXC-nin hakimiyyət hərisliyi Azərbaycan üçün 30 illik bir faciəyə yol açdı...

### Maşın göndərməyənlər təyyarə göndərdilər...

Çox uzaq olmayan bu tarixi görən, yaşayan insanlar indi də o acı günləri unuda bilmir. Ermənilərin təslim edilmiş Şuşaya necə gülə-gülə, sevinərək girmələri, hətta bu hədiyyəyə görə Elçibəyə təşəkkür etmələri yaddaşlardan silinməyib.”Şuşa işğal olunsa başıma güllə çaxacağam” deyənlər daha sonra Laçının ermənilərə təslim olunmasına vəsilə oldular.

Həmin dövrdə də bütövlükdə xalqımız dərk edirdi ki, ölkəni bu ağır vəziyyətdən yalnız bir şəxs qurtara bilər - Ulu öndər Heydər Əliyev. Lakin qısqanclıq, hakimiyyət hərisliyi onlar üçün bir nömrəli amala çevrilmişdi. Sonralar AXC-Müsavat hakimiyyətinin nümayəndəsi Tofiq Qasımov deyirdi ki, guya Heydər Əliyevi axtarıb tapa bilməyib, onunla əlaqə saxlaya bilməyiblər. Amma bəlli idi ki, onlar Heydər Əliyevə müraciət etmək istəmirdilər. Sonda isə... Heydər Əliyevin arxasınca bir maşın göndərməyənlər, özlərini xilas etmək üçün təyyarə göndərdilər...



... Laçının azadlığına gedən yol isə 2020-ci ilin payızında başladı. Həmin il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhədəki təxribatının qarşısını alan Rəşadətli Azərbaycan Ordusu 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad edib. İşğalçı erməni silahlı birləşmələri ordumuzun dəfedilməz hücumu qarşısında tab gətirə bilməyərək xeyli itki ilə geri çəkildi - Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan Ordusu qarşısında müqavimət göstərməyin faydasız olduğunu anlayaraq kapitulyasiya sənədinə imza atmağa məcbur oldu. Bununla da 27 il işğal altında olan Laçın rayonu dekabrın 1-də qəsbkarlardan azad olundu, həmin gün Azərbaycan Ordusunun bölmələri rayona daxil oldu və orada üçrəngli şanlı bayrağımız ucaldıldı - bir güllə belə atılmadan, bir şəhid verilmədən Laçın öz azadlığına qovuşdu. 2021-ci il fevralın 14-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Laçın rayonuna ilk səfər etdilər. Dövlət başçısı rayonun Güləbird kəndində Azərbaycan bayrağını ucaltdı. Prezident İlham Əliyevin 31 iyul 2022-ci ildə azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi ilə bağlı Sərəncamına əsasən, hər il ölkəmizdə 26 avqust - Laçın Şəhəri günü kimi təsis edilib. Əlamətdar günün bu tarixdə qeyd olunması Azərbaycan Ordusunun Laçın şəhərinə 2022-ci il avqustun 26-da yerləşməsi ilə əlaqədardır. Həmin gün Prezident İlham Əliyev azərbaycanlıların Laçın şəhərinə qayıtması ilə bağlı müjdəli xəbəri tvitter səhifəsində (indiki “X” sosial şəbəkəsi) elan edib. Bu gün Laçın yenidən qurulur, inkişaf edir. Rayonda ən yeni standartlara uyğun şəkildə infrastruktur qurulur. Artıq onlarla ailə Laçın şəhərinə, Sus və Zabux kəndlərinə və digər yaşayış məskənlərinə köçürülüblər. Böyük qayıdışın ən mühüm bir mərhələsi məhz Laçın rayonunun payına düşür - çünki Qarabağa ilk qayıdış həm də elə Laçın rayonundan başlayıb. Bu gün Laçın özünün əsl sakinlərini ağuşuna alaraq yeni inkişaf mərhələsini yaşayır...

### Azad LAÇIN...

*P.İSMAYILOV*

# Dörd ayda 6 milyard dollardan çox...

## Xarici ticarətdə yüksək müsbət saldo yaranıb

2026-cı ilin yanvar-aprel aylarında Azərbaycanın hüquqi və fiziki şəxsləri dünyanın 180-ə yaxın ölkəsi ilə ticarət əməliyyatları həyata keçirib, 110-a yaxın ölkəyə məhsul ixrac olunub, təxminən 150 ölkədən idxal edilib. Qeyd edilən dövrdə ölkəmizin xarici ticarət dövriyyəsi 17,4 milyard dollar təşkil edib. Ticarətin strukturunda ixracın payı 11 milyard 878 milyon dolları ötüb, idxalın nominal dəyər həcmi isə 5,5 milyard dollar olub. Ötən ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsinin həcmi 2,9 faiz çoxdur. Beləliklə, xarici ticarət dövriyyəsində 6 milyard 353 milyon dollar məbləğində müsbət saldo yaranıb.

1) **Xarici ticarətin gömrük statistikasının əsas göstəriciləri**

| | Milyon ABŞ dolları ilə | Min ABŞ dolları ilə | İxrac və idxalın xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| Xarici ticarət dövriyyəsi | 17 403.35 | 17 403 345.14 | 100.00 |
| o cümlədən: | | | |
| İxrac | 11 878.58 | 11 878 577.82 | 68.25 |
| İdxal | 5 524.77 | 5 524 767.31 | 31.75 |
| Xarici ticarət saldosu | 6 353.81 | 6 353 810.51 | - |

**İtaliya lider, Türkiyə isə idxalda ikinci ticari tərəfdaşımızdır**

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cəmi ticarət dövriyyəsində əsas ölkələr sırasında İtaliya, Böyük Britaniya, Türkiyə, Çin, Rusiya, Gürcüstan, Almaniya, Yunanıstan, Bolqarıstan, Amerika Birləşmiş Ştatları ilk onluq dövlətləri sırasında yer alır. Region baxımından əmtəə mübadilələrində Avropa İttifaqı 42 faizdən çox yer tutur. Azərbaycanın ixracda bir nömrəli ticarət partnyoru İtaliya, idxalda isə Çindir. Qardaş Türkiyə artıq ikinci ildir ki, idxalda ölkəmizin ikinci ticarət tərəfdaşı kimi mövqeyini qoruyur. ABŞ da əmtəə dövriyyəsində payını artırıb, 4 ayda ticari əməliyyatların həcmi təxminən 340 milyon dollara bərabər olub.

Azərbaycanın xarici ölkələrə ixrac etdiyi məhsulların strukturunda neft və qaz üstünlük təşkil edib, idxalda isə qiymətli metalların, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, kimya sənayesi məhsullarının, mineral məhsulların, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, toxuculuq materialları və məmulatlarının, plastik kütlə və ondan hazırlanan məmulatların dəyəri artıb.

Yeri gəlmişkən, cari ilin ötən 4 ayı ərzində Azərbaycan və Ermənistan arasında mal dövriyyəsi bir qədər də artaraq 9 milyon 646 min dollara çatıb. 4 ay ərzində Azərbaycanın Ermənistandan dolayı yolla idxalının dəyəri isə cəmi 960 dollar təşkil edib. Ümumilikdə, bu ölkə ilə ticarətin təxminən 38 faizi və ya 3,9 milyon dollarlıq hissəsi təkcə aprel ayının payına düşüb. Azərbaycan Ermənistana ixracda neft məhsulları əsas yer tutur.

**Qeyri-neft məhsullarının ixracı 1 milyard dolları ötüb**

2026-cı ilin yanvar-aprel aylarında Azərbaycanın qeyri-neft məhsullarının ixracı da artıb. Bu dövrdə qeyri neft-qaz məhsullarının ixracı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 13 faz artaraq 1,1 milyard dollar təşkil edib. İxrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4 dəfə, pambıq iplik 2,3 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 71 faiz, pambıq lifi 49,9 faiz, meyvə-tərəvəz 22,1 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 32,2 faiz, çay 12,1 faiz, spirtli və spirtsiz içkilər isə 9,4 faiz artıb. Bu dövrdə aqrar məhsullar üzrə ixrac 28,3 faiz artaraq 298,3 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac 31,6 faiz artaraq 119 milyon dollar təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 29,1 faiz artaraq 417,3 milyon dollara bərabər olub.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan, Ukrayna, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan, Belarus və ABŞ əsas yerləri tutur. İxracda “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”, “Agrarco” MMC, “Prime Cotton” MMC, “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC, “Baku Steel Company” QSC, “Prime Lm” MMC, ,”P-Aqro” MMC,”Khan-El” Mmc, “Mors Trading” MMC,”Stp Alüminium” əsas yer tutur. Həmçinin, qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına “AzerGold” QSC xüsusi yerə malikdir. Eləcə də, “SOCAR POLYMER”, “Azəralüminium” MMC, Azərbaycan Respublikası “Azərpambıq” Aqrar Sənaye Kompleksi, “Socar Cape” MMC, “Sənayecihaz” EİM, “İstisu” Mineral Su Zavodu, Qaradağ Şüşə Zavodu da ixracatçıların reytinq siyahısında xüsusi paya malikdir.







**Peyk məhsullarının ixracında rekord**

Azərbaycanın qeyri-neft ixracında yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri də öz imkanlarını genişləndirib. 2026-cı ilin ötən dövründə Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) tərəfindən dünyanın 30-dan çox ölkəsinə 5 milyon dollardan artıq peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin təqribən 65 faizini təşkil edib. Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracında Birləşmiş Krallıq, Lüksemburq, Türkiyə, Pakistan, İsveç, Nigeriya əsas yer tutub.

**Ticarət Evləri ixracın artmasnı təşviq edir**

Azərbaycanda qeyri-neft ixracının artmasında müxtəlif ölkələrdə fəaliyyət göstərən Ticarət Evlərinin də rolu mühüm əhəmiyyət daşımaqdadır. “Made in Azerbaijan” brendi altında qeyri-neft məhsullarının ixracının artırılması məqsədilə xarici ölkələrdə təsis edilmiş Ticarət Evləri Rusiya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Ukrayna, Polşa, Latviya, Çin, Qazaxıstanda Azərbaycan məhsullarının təkcə satışı və tanıdılmasında böyük rol oynayır.

Son illərdə Körfəz ölkələri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin başlanması bu region ölkələrində də ixrac xəritəsinin coğrafiyasını genişləndirib və yeni Ticarət Evlərinin yaradılması işlərini sürətləndirib. Eyni zamanda, potensial ixrac bazarları ölkələrində logistika mərkəzlərinin yaradılması və Ticarət Evləri ilə fəaliyyətinin əlaqələndirilməsi istiqamətində görülən işlər də yeni ixrac bazarlarının təşkilində mühüm rol oynamaqdadır.

*E.CƏFƏRLİ*

# Qlobal iqlim dəyişmələri böyük fəsadlara yol açır

Hazırda dünyada iqlim dəyişmələri ilə bağlı yaranan çağırışların aktuallığı heç vaxt olmadığı qədər artıb. Genişlənən sənaye inkişafının nəticəsi olaraq Yer kürəsində temperatur sürətlə dəyişir. Hökumətlərarası Panel (İPCC) tərəfindən təqdim edilmiş məlumata görə, sənaye dövrünü əhatə edən son 250 ildə atmosferdə məhz karbon qazının ümumi miqdarı 28 faiz, metanın miqdarı isə 60 faiz artıb. Bunun da nəticəsi olaraq son 100 ildə dünya üzrə orta temperaturun 0,8 dərəcə yüksəldiyi qeydə alınıb. Bu rəqəmin arxasında isə iqlim dəyişmələrinin miqyasına görə çox böyük, bir sıra hallarda qarşısıalınmaz fəsadları dayanır.

## İqlim dəyişmələrindən bütün ölkələr təsirlənirlər

Özlüyündə heç bir ölkə daşqınlardan, normadan artıq yağan yağışlardan, qar uçqunlarıından, tufanlardan, qasırğalardan, güclü küləklərdən, quraqlıqlardan, torpaqların şoranlaşmasından, su ehtiyatlarının azalmasından, sel gəlməsindən sığortalanmayıb. Başqa sözlə desək, ana təbiətin şıltaqlığından bütün dünya ölkələri təsirlənirlər.

Bu baxımdan Azərbaycana yaxın olan coğrafiyaların da istisnalıq təşkil etmədiyinin şahidiyik. Kəskin iqlim dəyişmələrinin nəticəsidir ki, son vaxtlarda Rusiya (Dağıstan), Türkiyə, İran və Azərbaycanda intensiv yağışlar, sel və digər təbii fəlakətlər müşahidə olunur. Bəzi yerlərdə hətta 48 saat ərzində aramsız yağışlar yağır ki, bu da normadan qat-qat çoxdur.

Bir qədər bundan əvvəl Türkiyənin müxtəlif bölgələrini ənginə alan təbiət hadisələri son illərin ən ağır fəsadlarına yol açıb. Belə ki, gözlənilməz təbiət hadisələri həm insan tələfatı, həm də infrastrukturun genişmiqyaslı dağılması ilə nəticələnib. Daşqınlar nəticəsində onlarla yaşayış evi yararsız hala düşüb, kənd təsərrüfatı sahələri tamamilə su altında qalıb.

Eyni zamanda, fəlakətin sovuşduğunu söyləmək mümkün deyil. 2026-cı ildə təsirli olacağı gözlənilən "Super El Nino" səbəbindən Türkiyədə ekstremal istilər, sel və daşqın riskinin ciddi şəkildə artacağı bildirilir. Mütəxəssislər xəbərdarlıq edirlər ki, isti hava dalğaları temperaturun 40 dərəcəni keçməsinə səbəb ola bilər. Bununla yanaşı, güclü yağışlar, sel və daşqın hadisələrinin də artacağı ehtimal olunur. Professor Orhan Şen "CNN Türk"ə açıqlamasında bildirib ki, 1997-ci ildən sonra müşahidə olunan ən güclü "Super El Nino" dalğası yaxınlaşır.



Onun sözlərinə görə, "El Nino" prosesi iyul ayında başlayacaq, payız və qış aylarında isə təsirini daha da artıracaq. Mütəxəssis qeyd edib ki, xüsusilə iyul, avqust və sentyabr aylarında bir-birinin ardınca güclü isti hava dalğaları yaşanacaq. Payız mövsümündə isə intensiv yağışlar, daşqınlar və sel hadisələrinin daha tez-tez baş verməsi gözlənilir.

İqlim dəyişmələrinin fəsadları qonşu İranı da ənginə alıb. Ölkədə insanlar müharibənin yaratdığı çətinliklərdən əlavə, həm də təbiətin sınaqları ilə üz-üzədirlər. Burada cari ilin əvvəlindən başlayan sel və daşqınlar onlarla insanın ölümünə, minlərlə evin su altında qalmasına, çoxlu sayda infrastruktur obyektinin sıradan çıxmasına səbəb olub.

Cari ildə həmçinin qonşu Rusiyanın subyekti olan Dağıstanda ağır təbiət hadisəsi yaşanıb. Rusiya Federasiyasının Dağıstan Respublikasında martın sonundan bəri davam edən anomal yağıntılar Dərbənd rayonunda dəhşətli faciəyə səbəb olub, o cümlədən çoxlu sayda insan həyatını itirib. Bəhs olunan təbii fəlakət son 100 ildə Dağıstanda qeydə alınan ən güclü sel hadisəsi sayılır. Ən çox yağıntı Mahaçqala, Dərbənd, həmçinin Axtı, Kuppa, Kasumkənd, İzberbaş, Kumux, Dağıstan Oqni və digər yaşayış məntəqələrində qeydə alınıb. Həmçinin təbii fəlakət qonşu Çeçenistan və İnquşetiyaya da keçib.

## Azərbaycanın həssas yanaşması

Azərbaycan da iqlim dəyişmələrindən təsirlənən ölkələr sırasında yer alır. Xəzər dənizinin geri çəkilməsi, bəzi çaylarda sululuğun azalması, həmçinin son vaxtlarda yağan intensiv yağışlar, ayrı-ayrı bölgələrdə baş verən selbasma hadisələri bunun əyani təsdiqidir.

Qlobal çağırış olan iqlim dəyişmələri dövlətlər üçün milli səviyyələrdə böyük məsuliyyət yaradır. Burada Azərbaycanın sərgilədiyi mövqe dünya üçün nümunə sayıla bilər. Xatırlayaq ki, məsuliyyətli dövlət olan Azərbaycanın ev sahibliyi ilə keçirilən COP29 tarixə nümunəvi bir iqlim tədbiri kimi düşüb. Azərbaycanın COP29-a yüksəksəviyyəli hazırlıqlar görməsi və Bakıda yaxşı nəticələrin əldə olunması ölkəmizin gücünün və məsuliyyətinin təsdiqi, eyni zamanda, iqlim çağırışlarına çox həssas yanaşmasının bariz ifadəsidir. Respublikamız hər zaman öz gündəliyini qlobal çağırışlarla uzlaşdırıb. O cümlədən Azərbaycan iqlim dəyişmələri ilə bağlı qlobal çağırışları dəstəkləyən və buna öz töhfələrini verən dövlətdir. Ölkəmiz 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) təsdiqləyib. Respublikamız Milli Məclisin 18 iyul 2000-ci il tarixli Qərarı ilə Kioto Protokoluna qoşulub. Azərbaycan, həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasını imzalayıb.

Azərbaycan dövləti, həmçinin son vaxtlarda respublika ərazisində güclü yağışların vurduğu ziyanın aradan qaldırılmasında da vətəndaşların yanında olmaq nümunəsi sərgiləyir. Məlum olduğu kimi, Prezident İlham Əliyev 28 aprel 2026-cı il tarixində sel və daşqınların təhlükəli və zərərli təsirlərinə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel suları nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərin davamlılığının təmin edilməsi, habelə gələcəkdə analoji halların təkrarlanmaması üçün Azərbaycanın 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan bu Sərəncama Əlavədə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün ümumilikdə 85.869.260,0 (səksən beş milyon səkkiz yüz altmış doqquz min iki yüz altmış) manat vəsait ayrılıb. Dövlət başçısının imzaladığı bu sənəd bilavasitə vətəndaşların mənafelərinin qorunmasına, onlara dəyən ziyanın aradan qaldırılmasına, bu sahədə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə yönəldilib.

***Mübariz FEYİZLİ***

# Qlobal silahlanma: Kim nə qədər qazanır?

Hazırda müharibə, silahlanma mövzuları dünya gündəminin mərkəzinə keçib. Bu da onunla bağlıdır ki, Yaxın Şərqdə və Şərqi Avropada uzanan müharibələr regional və qlobal səviyyədə təhlükəsizliyə təhdidləri heç vaxt olmadığı qədər artırıb. İndi hamı o reallığı qəbul edir ki, izlənilən geosiyasi reallıqlar fonunda heç bir dövlət müharibələrdən təsirlənmək risklərindən kənarda deyil.

Yaranmış vəziyyət qarşıya ölkələrin müdafiə sistemlərini müasir, daha innovativ silahlarla möhkəmlətməklə bağlı yeni çağırışlar çıxarıb. Bu isə o anlama gəlir ki, ayrı-ayrı ölkələrin silahlanmaya daha böyük həcmdə büdcə ayırmaları fonunda hərbi texnika ixracatçılarının gəlirləri sürətlə artır. Bəs qlobal silahlanma yarışında əlini qızdıran hansı ölkələrdir və kim nə qədər qazanır?

**Son 5 ildə silah ticarətində rekord artım**

"Stockholm International Peace Research Institute" (SIPRI) tərəfindən dərc edilən qlobal silah ticarətinin vəziyyətinə dair yeni hesabatda son beş ilin statistikası öz əksini tapıb. Hesabatdan aydın olur ki, 2021-2025-ci illərdə dövlətlər arasında əsas silah növlərinin ixracı və idxalının həcmi 2016-2020-ci illərlə müqayisədə 9,2 faiz artıb. Bu sahədə alışları üç dəfədən çox artıran Avropa ölkələri ən böyük silah alıcısı regionuna çevrilib. Belə ki, son 5 ildə qoca qitəyə silah idxalı 210 faiz artıb. Hesabatda bildirilir ki, 2021-2025-ci illərdə Avropa ölkələri müdafiə xərclərini artıraraq silah idxalındakı paylarını 12 faizdən 33 faizə qaldırıblar. Siyahıda əvvəllər lider olan Asiya və Okeaniya ölkələri 31 faizlə ikinci, Yaxın Şərq isə 26 faizlə üçüncü yerdə qərarlaşıb. Məlumatda vurğulanıb ki, Avropaya idxal olunan silahların böyük hissəsi Amerika Birləşmiş Ştatları tərəfindən təmin olunur.

Hazırda qlobal silah ixracında liderlik Amerika Birləşmiş Ştatlarına məxsusdur. Fransa 9,8 faizlə ikinci yerdə qərarlaşıb. Bu ölkə xüsusilə də "Rafale" qırıcısının satışından böyük həcmdə gəlir əldə edir. Silah satışında Rusiyanın payı isə Ukraynaya qarşı 2022-ci ildə başladığı müharibədən sonra 21 faizdən 6,8 faizə qədər azalıb. Hesabata görə, Avropa ölkələrinin ümumi silah ixracı qlobal bazarın 28 faizini təşkil edir ki, bu da Rusiyanın payından dörd dəfə, Çinin payından isə təxminən beş dəfə çoxdur.

Qlobal silah bazarında Avropa ölkələrinin silah ixracından bəhs edərkən burada bəzi dövlətlərin ehtiyatlı davranmaları və silah satışını məqsədli şəkildə azaltmaları da diqqətdən kənarda qalmır. Bu tendensiya son illərdə Avropanı bürüyən Rusiya ilə ehtimal olunan yeni müharibə xofu ilə əlaqədardır. Rusiya belə bir hücüm planını inkar etsə də, bu, Avropa paytaxtları üçün təsəlli sayılmır və onlar istehsalı artırmaqla daha çox dərəcədə yerli anbarları doldurmaq qayğısına qalırlar. Almaniyanın davranışları buna əyani sübutdur. Bu ölkənin İqtisadiyyat Nazirliyi hökumətin ötən ilin 8 dekabr tarixinədək 8,40 milyard avro dəyərində silah və hərbi material satışına icazə verdiyini açıqlayıb. Müqayisə üçün bildirək ki, Almaniyanın silah ixracı 2023-cü ildə 12,15 milyard avro, 2024-cü ildə isə 13,33 milyard avro ilə rekord səviyyəyə çatmışdı. 2025-ci ildə isə bu göstəricidə nəzərəçarpacaq azalma qeydə alınıb. Almaniya, həmçinin Kiyevə silah tədarükünü qənaətlə həyata keçirib. Belə ki, Berlin administrasiyası 2025-ci ildə Ukraynaya yalnız 1,14 milyard avro dəyərində silah və hərbi texnika satışına icazə verib. Halbuki 2024-cü ildə Almaniyanın Ukraynaya silah ixracı 8,15 milyard avro təşkil etmişdi. Xristian Birlik (CDU/CSU) və Sosial Demokrat Partiyanın (SPD) yaratdığı və 2025-ci ilin may ayında fəaliyyətə başlayan yeni Almaniya hökuməti cari il ərzində ümumilikdə 5,39 milyard avro dəyərində silah və hərbi material satışına razılıq verib.



Qlobal silah satışı bazarında rəqabət mühitinin dəyişməsi də diqqətdən kənarda qalmır. Belə ki, ABŞ, Rusiya və Almaniya kimi ənənəvi silah ixrac edən ölkələrlə yanaşı, Çin, Cənubi Koreya və Türkiyə kimi ölkələrin hərbi sənayeləri də sürətlə inkişaf edir və həmin ölkələr beynəlxalq bazarda daha çox söz sahibi olurlar. Türkiyə son 10 ildə ilk on qlobal ixracatçı sırasına daxil olub. Qardaş ölkənin silah sənayesi xüsusən də pilotsuz uçuş aparatlarının istehsalında 2024-cü ildə əvvəlki ilə nisbətən yeni rekorda imza atıb və ixracın həcmi 80 faiz artıb.

2021-2025-ci illərdə əsas silah növlərinin beş ən böyük ixracatçısı ABŞ, Fransa, Rusiya, Almaniya və Çin olub. Həmin dövrdə ən böyük beş alıcı ölkə isə Ukrayna, Hindistan, Səudiyyə Ərəbistanı, Qətər və Pakistan olub.

**Ölkələr üzrə sifarişlər fərqlidir**

Ekspertlərin dəyərləndirmələrinə görə 2026-cı ildə Avropa məkanında hərbi sifarişlərin və müdafiə xərclərinin sürətlə artması qaçılmaz görünür. Ölkələr üzrə sifarişlər də fərqlidir. Siyahının başında 43 milyard avroluq tələblə Polşa yer alır. Onu 16 milyard avrodan çox tələb irəli sürən Fransa, Rumıniya və Macarıstan izləyir. Böyük ölkələrdən biri olan İtaliya isə 14,9 milyard avroluq tələblə siyahının 10 milyardlıq sərhədini keçən son ölkə kimi qeyd olunur. Qalan 14 ölkə isə belə sıralanır: Belçika (8,34), Litva (6,38), Portuqaliya (5,84), Latviya (5,68), Bolqarıstan (3,26), Estoniya (2,66), Slovakiya (2,32), Çexiya (2,06), Xorvatiya (1,7), Cənubi Kipr (1,18). Finlandiya və İspaniya isə bir milyard avro həddindədir. Bir milyardın altında yalnız iki ölkə var: Yunanıstan (790 milyon) və Danimarka (50 milyon).

Sənədə əsasən, qlobal silah axınındakı artım 2011-2015-ci illərdən bəri ən böyük artım hesab olunur. Əksər hallarda bu artım Ukrayna və digər Avropa ölkələrinə silah tədarükünün çoxalması ilə bağlıdır. Çünki 2021-2025-ci illərdə Ukraynanın payı ümumi həcmin 9,7 faizini təşkil edib.

**900 milyardlıq sifariş...**

Supergüc dövlət olan Amerika Birləşmiş Ştatları dünya üzrə ən böyük müdafiə büdcəsinə malik olduğu kimi, silah satışında da hegemonluq edir. Pentaqonun və Ağ Evin məlumatına görə, xarici tərəfdaşların ABŞ-dan ümumi silah sifarişləri 900 milyard dollara çatıb, lakin müttəfiqlər artıq ödənilmiş tədarüklər üçün bir neçə il gözləmək məcburiyyətində qalıblar.

Bildirilib ki, qlobal silah satışlarının 43 faizi ABŞ-ın payına düşür. Hazırkı portfel 190 ölkə və region üçün 16.000-dən çox sifarişdən ibarətdir.

ABŞ-ın silah ixracı coğrafiyasına həm ənənəvi dost ölkələr, həm də yeniləri daxildir. Məsələn, Tayvan və ABŞ ümumi dəyəri 208,77 milyard Tayvan dollarından (təxminən 6,6 milyard ABŞ dolları) çox olan altı böyük silah alışı müqaviləsi imzalayıblar. Müqavilələr cari ilin aprel ayında imzalanıb. Əldə edilən razılaşmaların bir hissəsi olaraq, ABŞ Tayvana 123,5 milyard Tayvan dollar (3,9 milyard ABŞ dolları) dəyərində HIMARS raket sistemləri, 73,89 milyard Tayvan dolları (2,3 milyard ABŞ dolları) dəyərində "M109A7 Paladin" özüyeriyən artilleriya qurğuları və quru qüvvələri üçün 5,32 milyard Tayvan dolları (168 milyon ABŞ dolları) dəyərində əlavə raket vasitələri satacaq.

Digər üç müqavilə hərbi donanma üçün 5,13 milyard Tayvan dolları (162 milyon ABŞ dolları) dəyərində raket silahlarının tədarükünü, 910,45 milyon Tayvan dolları (29 milyon ABŞ dolları) dəyərində Tayvan-Amerika birgə iri çaplı sursat istehsalını və s. əhatə edir.

ABŞ həmçinin Almaniyaya radar izləmə stansiyaları, MK-41 dəniz əsaslı raket buraxılış sistemləri və naviqasiya və elektron müharibə sistemləri daxil olmaqla bir neçə növ hərbi texnika satışını təsdiqləyib. Bu barədə dövlət departamentinin mətbuat xidməti məlumat yayıb. Bildirilir ki, dəyəri 11,9 milyard dollar olan və donanma üçün elektronika və silahları əhatə edən bu müqavilə Almaniyanın "Avropada siyasi sabitlik və iqtisadi tərəqqi üçün qüvvə" kimi təhlükəsizliyini gücləndirəcək. Müqavilənin əsas podratçıları Lockheed Martin və RTX olacaq.

Eyni zamanda, ABŞ Dövlət Departamenti İsrailə ümumi dəyəri 6,5 milyard dolları aşan genişmiqyaslı silah satışına rəsmi icazə verib. Pentaqona tabe olan Müdafiə Təhlükəsizlik Əməkdaşlıq Agentliyi (DSCA) yazılı açıqlama yayaraq, sözügedən satışların ABŞ Konqresinə rəsmi şəkildə bildirildiyini açıqlayıb.

Məlumata görə, ABŞ İsrailə 3,8 milyard dollar dəyərində 30 "Apache" helikopteri, eləcə də bu hava vasitələrində istifadə olunan müxtəlif ehtiyat hissələri və döyüş sursatlarının satışını təsdiqləyib.

Bundan əlavə, Dövlət Departamenti təxminən 2 milyard dollar məbləğində Birgə Yüngül Taktiki Avtomobillər (JLTV) və əlaqədar avadanlıqların da İsrailə tədarükünə razılıq verib. Satış paketinə daxil olan digər müqavilə çərçivəsində isə təxminən 740 milyon dollar dəyərində "Namer" zirehli personal daşıyıcıları üçün güc sistemləri və inteqrasiya olunmuş logistik dəstək avadanlıqları təsdiqlənib. Rəsmi açıqlamada bildirilib ki, bu satış İsrail quru qoşunlarının əməliyyat zamanı hərəkət qabiliyyətini artıracaq və ölkənin mövcud və gələcək təhlükələrə qarşı müdafiə imkanlarını gücləndirəcək.

**Tarixin ən böyük silah satışı müqaviləsi**

ABŞ və Səudiyyə Ərəbistanı arasında silah satışı üzrə tarixin ən böyük müqaviləsi imzalanıb. Bu müqavilə çərçivəsində ABŞ Səudiyyə Ərəbistanına 142 milyard dollar dəyərində silah tədarükü həyata keçirəcək. Ağ Evdən verilən məlumata görə, tarixi razılaşma Səudiyyə Ərəbistanının vəliəhdi Məhəmməd bin Salman ilə ABŞ Prezidenti Donald Trampın rəhbərlik etdiyi heyətlərin Ər-Riyadda yerləşən Yemame Sarayında keçirilən görüşü zamanı rəsmiləşib.

Səudiyyə Ərəbistanı ABŞ-ın Yaxın Şərqdə müxtəlif növ silah satışı həyata keçirdiyi yeganə ölkə deyil. Tramp administrasiyası Yaxın Şərqdəki müttəfiqlərinə ümumilikdə 23 milyard dollar dəyərində silah satışını təsdiqləyib. "The Wall Street Journal"ın yaydığı məlumata görə, paketə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Küveyt və İordaniyaya hərbi texnika tədarükü daxildir. ABŞ Dövlət Departamenti daha əvvəl BƏƏ üçün hava hücumundan müdafiə sistemləri və bombalar, həmçinin Küveyt üçün müvafiq avadanlıqlar daxil olmaqla 16 milyard dollarlıq satışın təsdiqləndiyini açıqlamışdı.

Nəşr mənbələrə istinadla bildirir ki, qeyd olunan məbləğdən əlavə, ABŞ administrasiyası BƏƏ-yə təxminən 7 milyard dollar dəyərində silah satışını da təsdiqləyib. Bu paketə təxminən 5,6 milyard dollar dəyərində "Patriot" sistemləri üçün PAC-3 raketləri, eləcə də təxminən 1,32 milyard dollar dəyərində "CH-47 Chinook" helikopterləri daxildir.

Həmçinin vurğulanır ki, ABŞ administrasiyası bəzi iri hərbi texnika tədarükünü Konqresin təsdiqindən yan keçirmək üçün silah nəzarəti qanunvericiliyində nəzərdə tutulan fövqəladə hallar mexanizmlərindən istifadə edir. Bu çərçivədə, o cümlədən Terminal Yüksək Hündürlük Ərazi Müdafiəsi raketdən müdafiə sistemi üçün təxminən 4,5 milyard dollar dəyərində avadanlığın ixracı həyata keçirilib.

***Mübariz ABDULLAYEV***

# Müharibəyə davam, yoxsa...

## ABŞ İrana çağırış etdi: Razılaşmasalar, pis olacaq...

Yaxın Şərq müharibəsi "sükut zamanı"na qədəm qoysa da, müharibənin yenidən alovlanması təhlükəsi davam edir. Hazırda ABŞ və İran aprelin əvvəlində elan edilən və Prezident Donald Tramp tərəfindən qeyri-müəyyən müddətə uzadılan atəşkəs vəziyyətindədirlər. Amma bu sükut çox çəkməyə bilər. Belə ki, Axios ABŞ rəhbərliyinin müəyyən variantları müzakirə etməyi planlaşdırdığını yazır. Planın 19 mayda reallaşacağı ilə bağlı xəbərlər yayılmaqdadır.

**19 mayda...**

Axios xəbər verir ki, ABŞ prezidenti 19 mayda İrana qarşı hərbi variantları müzakirə etmək üçün milli təhlükəsizlik qrupunu toplayır. Bundan öncə isə dövlət başçısı Virciniyadakı qolf klubunda Vens, Vitkoff və Rubio ilə birgə görüş keçirib. Ağ Ev rəhbəri Axios-a bildirib ki, o, hələ də İranın razılaşma istədiyinə inanır. O, Tehrandan yenilənmiş təklif gözlədiyini və bunun əvvəlkindən daha yaxşı olacağına ümid etdiyini bildirib. Nəticədə isə Vaşinqtonun da razılığa gəlmək istədiyini vurğulayıb. Tramp xəbərdarlıq edib ki, İran üçün "saat işləyir" və tələsmək daha yaxşıdır. O, İranı daha əlverişli şərtlər təklif etməsə, ABŞ-ın "əvvəlkindən daha sərt" zərbə vuracağı ilə hədələyib.

**Kim nəyi təklif edir?**

Xatırladaq ki, mayın 17-də İranın Fars xəbər agentliyi ABŞ-ın danışıqlara başlamaq üçün İrana beş şərt təqdim etdiyini bildirmişdi. Şərtlərə əsasən:

- ABŞ tərəfindən hər hansı kompensasiya və ya zərər ödənişlərindən imtina edilməsi;
- 400 kq İran uranının çıxarılması və ABŞ-a təhvil verilməsi;
- İranın nüvə obyektlərinin yalnız bir kompleksinin istismarının davam etdirilməsi;
- İran aktivlərinin hətta 25 faizinin dondurulmasının ləğv edilməsindən imtina edilməsi;
- Danışıqların aparılması və irəliləməsi bütün cəbhələrdə hərbi əməliyyatların dayandırılması bildirilir.

Ardından iisə Tehran danışıqların bərpası üçün özünün beş şərtini irəli sürüb. Bunlar arasında:

- Livanda bütün cəbhələrdə müharibənin dayandırılması;
- İrana qarşı sanksiyaların ləğvi;
- İran aktivlərinin dondurulmasının ləğvi;
- Hərbi əməliyyatlardan dəyən ziyana görə kompensasiya;
- İranın Hörmüz boğazı üzərində suverenliyinin tanınması yer alır.

Tramp iranlıların son təklifini rədd edərək, onu "cəfəngiyat" və "tamamilə qəbuledilməz" adlandırdı. O, hətta təqdim olunan şərtləri sonuna qədər oxumadığını bildirib.

Daha sonra Amerika prezidenti İranla müharibənin yalnız qismən bitdiyini elan etdi və onu sona çatdıracağına söz verdi. O izah etdi ki, atəşkəs digər ölkələrə, xüsusən də Pakistana bir lütf idi.

**Trampdan sərt mesaj...**

ABŞ prezidenti Donald Tramp İranın ondan qorxmalı olduğunu bildirib. İsrailin 13-cü Kanalına müsahibəsində dövlət başçısı "İranlılar qorxmalıdırlar, düşünürəm ki, onlar məndən qorxmalıdırlar", - deyə qeyd edib. Truth Social-da isə Tramp Orta Şərqin xəritəsinin şəklini paylaşıb. Şəkildə İran mərkəzdədir və İraq, BƏƏ, Oman, Pakistan və Əfqanıstan da daxil olmaqla qonşu ölkələrdən qırmızı oxlar ona doğru yönəlib.

Vurğulayaq ki, Ağ Ev rəhbəri daha əvvəl gəmilərlə əhatə olunmuş ABŞ Hərbi Dəniz Qüvvələrinin köynəyində süni intellektdən yaradılan şəklini paylaşıb. Başlıqda deyilirdi: "Bu, fırtınadan əvvəlki sakitlik idi."

ABŞ Prezidenti BFMTV-yə verdiyi açıqlamada bildirib ki, İran ABŞ ilə sülh sazişi əldə etməsə, çətin günlərlə üzləşəcək. O, İranla yaxın zamanda razılaşma əldə edilib-edilməyəcəyini bilmədiyini bildirib. "Onların əldə edib-etməyəcəyi barədə heç bir fikrim yoxdur. Əks təqdirdə, onları çox çətin günlər, çox çətin günlər gözləyir. Yaxşı olar ki, razılaşma əldə etsinlər", - deyə ABŞ Prezidenti bildirib.

Daha əvvəl Tramp İranın sülh təklifini qəbuledilməz adlandırıb. "Əl-Cəzirə"nin məlumatına görə, İran ABŞ-a müharibəyə son qoymaq üçün üç mərhələli plan təqdim edib və bu plan atəşkəsdən Yaxın Şərqdə uzunmüddətli razılaşmaya keçidi nəzərdə tutur.

**Çinin mövqeyini öyrənmək üçün...**

CNN mənbələrə istinadən xəbər verib ki, Pentaqon, Prezident Donald Trampın hücumları bərpa etmək qərarına hazırlıq mərhələsinə qədəm qoyub. Bunun üçün bir sıra planlar hazırlanıb. Hədəflərə İranın enerji obyektləri və digər infrastruktur daxildir. Nəşr vurğulayır ki, Tramp Tehranın danışıqları aparmasından getdikcə daha çox məyus olur və Hörmüz boğazının bağlanmasından və bunun qlobal neft qiymətlərinə təsirindən narazı qalır. Pekinə səfəri zamanı prezident və komandası Tehranla bağlı əlavə addımlar barədə qərarı təxirə salıblar. ABŞ rəsmilərinin sözlərinə görə, onlar əlavə addımlar müəyyən etməzdən əvvəl Trampla Çin lideri Si Cinpin arasındakı danışıqların nəticələrini gözləmək istəyiblər.

**İranın "Hörmüz planı"...**

İran Silahlı Qüvvələrinin Xatəm əl-Ənbiya Mərkəzi Əməliyyatlar Qərargahının sözçüsü İbrahim Zülfəqari isə bildirib ki, cənubi Fars körfəzindəki bütün ABŞ hərbi bazaları tezliklə bağlanacaq. "Son 24 saat ərzində İİKK donanması Hörmüz boğazından tək bir gəminin keçməsinin qarşısını alıb. Biz yeni bir nizam quracağıq", - deyə o, sosial mediada yazıb.

Qeyd edək ki, ABŞ-ın bölgədəki əsas hərbi bazaları Fars körfəzi ölkələrində yerləşir. Yaxın Şərqdə ABŞ-ın əsas hərbi bazası olan və Mərkəzi Komandanlığın İrəli Qərargahı və Hava Əməliyyatları Mərkəzinin yerləşdiyi Əl-Udeyd Hava Bazası isə Qətərdədir. ABŞ Hərbi Dəniz Qüvvələrinin əsas mərkəzi olan 5-ci Donanmanın yerləşdiyi NSA Bahrain-ə isə Bəhreyn "ev sahibliyi" edir. Küveytdəki Arifjan düşərgəsi ABŞ hərbi quru bazası kimi xidmət edir və logistika mərkəzi kimi xidmət göstərir - bu ölkədə həmçinin taktiki hava bazası və kəşfiyyat mərkəzi olan Əli Əl-Salem Hava Bazası yerləşir. BƏƏ də Əl-Dəfra Hava Bazası ABŞ hava qanadına ev sahibliyi edir, Əl-Minhad Hava Bazası isə xüsusi missiyalar üçün logistika və dəstək təmin edir.

Qeyd edək ki, bir neçə gün öncə İran Parlamentinin Milli Təhlükəsizlik Komitəsinin sədri İbrahim Əzizi İranın Hörmüz boğazında gəmiçiliyin idarə olunması üçün "peşəkar mexanizm" hazırladığını və tezliklə təqdim edəcəyini açıqlamışdı. Bu mexanizm gəmilərin İran tərəfindən təsdiq edilmiş marşrut üzrə və ödənişli şəkildə hərəkət etməsini nəzərdə tutur. Əzizinin sözlərinə görə, marşrut gəmiləri müşayiət edən ABŞ-ın Azadlıq Əməliyyatı Layihəsinin iştirakçıları üçün bağlanacaq.

**Danışıqlar davam edəcəkmi?**

Bu arada Pakistanın daxili işlər naziri Möhsin Rza Naqvi ötən həftəsonu İranın yüksək vəzifəli rəsmiləri ilə müharibəyə son qoymaq üçün razılaşma ilə bağlı danışıqlar aparmaq üçün Tehrana səfər edib. Bəlli olduğu kimi, Pakistan ABŞ və İran arasında rəsmi vasitəçidir.

İran Parlamentinin sədri Məhəmməd Bağır Qalibaf isə ABŞ-ı müharibəyə son qoymaq üçün İranın irəli sürdüyü təklifi qəbul etməyə çağırıb və bildirib ki, onlar nə qədər çox tərəddüd etsələr, "bir o qədər çox Amerika vergi ödəyicisi bunun üçün pul ödəyəcək".

**P.İSMAYILOV**



# Vücudunun məzarından qalxan ruh

## Lev Tolstoyun "Dirilmə" romanı haqqında

**əvvəli ötən saylarımızda**

"Cinayət və cəza"nın epiloquyla səsləşən, şair demiş, "qafiyələnən" bir sonluq. Bəziləri finalı belə açıq saxladığına görə yazıçını qınayırdı, Tolstoy özü isə deyirdi ki, bütün romanı məhz bu sonluğun xatirinə, bu finala gəlib çıxmaq üçün qələmə alıb. Hər iki "qohum" əsər günahkarların dirilməsiylə, onların gələcəyinə ümidlə başa çatır, hər iki əsərdə qəhrəmanların dirilişi İncilin qüdrətiylə baş tutur. Dostoyevski də, Tolstoy da ölü bəndəyə can verən Həzrət İsanın möcüzəsini təkrarlayıb, bədəninə gömülmüş, günahlarına dolaşmış, gövdəsini tabut kimi üzünə qapatmış, vücudunun məzarında qəflət yuxusuna dalmış ruhları dirildir. Hərçənd ruha ölüm yoxdur, ruh həmişə diridir, dirilən - ruhun atıb getdiyi, başsız, yiyəsiz, cansız qoyduğu bədəndir. Ruhun ehya vermədiyi, boğazına çatı salıb yedəyincə hərləmədiyi bədən - ölü candır. Kainatda ən təhlükəli varlıq, atom bombasından qat-qat qorxulu silah da elə - ruhsuz bədən, könülsüz candır; ruhunun buyruğundan çıxan candan, könülsüz sevən bədəndən dünyada nə pislik desən, gözləmək olar.

Dostoyevski-Tolstoy qardaşları mənəvi varlığından - içindəki allahından güc almayan, ruhuyla sazişdən yayınan, ağlını, düşüncəsini instinktlərin, heyvani istəklərin istifadəsinə verən insanın hansı fəlakətlə üzləşdiyini, necə puç, mənasız ömür yaşadığını, heç vaxt dinclik, xoşbəxtlik tapmadığını bizə əyani şəkildə göstərirlər. Belə kitablar bəşərin ruhani yaddaşını vaxtaşırı təzələmək, pozulmaz əxlaq, mənəviyyat qanunlarını unutdurmamaq məqsədiylə yazılır. Bu iki dahinin nicatı xristian dinində görməsi də şərti məsələdir; ayrı qiymətli kitablar kimi İncil də heç vaxt köhnəlməyən, daim təzə-tər qalan əxlaq, mənəviyyat qanunlarının mükəmməl ifadə olunduğu kitabdır. Bir başqası başqa kitaba söykənər, başqa peyğəmbəri özünə örnək götürər. Biri də çıxıb indiyəcən açılmamış qapıları döyər. Əsas odur ki, bu işlər dayanmasın, yer üzündə insan ruhu, insanın mənəvi varlığı müdam işlək halda olsun, hürufilərin rəmzi qılıncı ovxardan düşməsin.

***

O ki qaldı Tolstoyun anarxizminə, bu məsələ də onu Dostoyevskidən ayıran başlıca cəhətlərdən idi. Ömrünün axırınacan borcdan çıxa bilməyən Fyodor Mixayloviçdən fərqli olaraq varlı mülkədar Lev Nikolayeviç sosial utopiyalara meyilli idi, ağlına batan nəzəriyyələri öz mülklərində, ailəsində sınaqdan keçirməyə həvəs göstərir, dar çevrədə qiyaməti elan eləyib məhşər qurmağa, dünyanın sonuna qalmayacağını bildiyindən o sonluğu çəkib öz zamanına gətirməyə bir uşaq inadıyla çalışırdı. Dostoyevskinin məhşəri daha çox antiutopiya janrındadır, onun qəhrəmanı nihilizmdən, anarxizmdən, sosializmdən, yer üzündə özbaşına məhşər qurmaq hərisliyindən uzaqlaşdıqca dinclik tapır, şəfaya çatır; Tolstoyun qəhrəmanısa dövrünün mərəzlərindən sağaldıqca, həyatın necə təhrifə uğradıldığını gördükcə nihilizmə, anarxizmə, sosializmə yanaşır, doğrudur, oralarda da çox bənd almır, özünün redaktə elədiyi xristianlığa qayıdır.

Ancaq onun xristianlığı da, anarxizmi də sosializmə, kommunizmə çox bənzəyir - bu bənzərlik Nexlyudovun yeznəsiylə söhbətində aşkar görünür, adam qəhrəmanı atıb yeznənin tərəfinə keçmək istəyir. Torpaq üzərində xüsusi mülkiyyəti haram saymaq xristian anarxizmi də yox, xalis kommunizmdir. Xüsusi mülkiyyət insanın fitri haqqıdır, onun ləğvinə qol çəkmək insanlığı dünyaya, təbiətə münasibətdə sahiblik hissinin hələ formalaşmadığı, insanın təbiətlə daimi müharibə vəziyyətində olduğu, ölüm-dirim savaşı apardığı ibtidai dövrə qaytarmaq deməkdir. Xüsusi mülkiyyətdən yarımamış Dostoyevski belə bir manifestə, əlbəttə, imza atmazdı. Tolstoyun gəncliyində Parisdə tanış olub maraqla dinlədiyi siyasi anarxizmin banisi Prudonun xüsusi mülkiyyəti oğurluq sayması da təhriflərə, yanlış yozumlara yer qoyan yanaşmadır. Bu məsələdə ən mükəmməl yanaşma individual anarxizmin atası Ştirnerin yanaşmasıdır.

Xüsusi mülkiyyəti nəinki ləğv eləmək, bütövlükdə dünyanı, kainatı ayrıca götürülmüş hər bir fərdin mülkiyyətinə vermək lazımdır. İnsanları aclıqla, yoxsulluqla, heç nəyin yiyəsi olmamaqla yox (çünki onda oğurlayacaq), hər kəsi dünyanın şəriksiz sahibi elan eləməklə bərabərləşdirmək olar. Heç kimin heç nəyin yiyəsi olmadığı, kolxozun ala danasına yüz yerdən əl uzandığı dünyada biz yaşamışıq, elə dünyada xeyir-bərəkət damazlıq tutmaz, düzgünlük işgəncəyə çevrilər, halallıq lağa qoyular. Çexov "Firəng üzümü" hekayəsində Tolstoyun "İnsana çoxmu torpaq lazımdır?" adlı ibrətamiz pritçasında irəli sürdüyü fikirlərlə polemikaya girib personajın dilindən yazırdı: "Deyirlər ki, insana üç arşın torpaq lazımdır. Axı üç arşın torpaq insana yox, meyidə gərəkdir. İnsana üç arşın torpaq, bütöv bir malikanə yox, bütün yer kürəsi, bütün təbiət lazımdır ki, o meydanda azad ruhunun bütün cəhətlərini, bütün xüsusiyyətlərini göstərə bilsin".

İnsan oğlu dünyanı zəbt eləməlidir, ancaq qoşunla yox, eşqlə - Dostoyevski kimi, Tolstoy kimi. İnsan ruhundan doğulmuş dünyanı geriyə almalıdır, fəqət zorla yox, sevgiylə, nəvazişlə. İnsan dünyaya yiyə çıxmalıdır, amma işğalçı kimi, oğru kimi yox, yerin əzəli-əbədi sahibi, yaradanı kimi. Bəşər təsəvvüründəki ən ali arxetip, ən uca, pak varlıq olan Tanrını necə tanıyırıq - yerin-göyün sahibi, mülkün şəriksiz yiyəsitək. Dindar da, kafir də, deist də, ateist də təxəyyülünə sorğu göndərsə, mütləq bu cavabı alacaq. Bu qədər varlı-dövlətli, bu qədər cah-cəlallı olduğuna görə Allahı qınamırıq ki? Onda bəs insan niyə xəyallarının qəhrəmanına bənzəməyə, idealına oxşamağa çalışmasın? Bütün böyük əməllər xəyal gücünə yaranmırmı?..



**F.Uğurlu**

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN





# Samsundan başlayan azadlıq nəfəsi...

## 19 may gəncliyin, ümidin və qələbənin bayramıdır

1919-cu il mayın 19-da Türkiyədə azadlıq uğrunda başlayan böyük bir mübarizənin, gənclərin gücünə, gələcəyinə sonsuz inamın, milli ruhun və birlik hissinin bütün dünyaya nümayiş etdirildiyi tarixdir. Bu gün Türkiyənin bütün şəhərlərində “19 May-Atatürkü anma, gənclik və idman bayramı” böyük təntənə ilə qeyd olunur. Bayramın qeyd olunması ölkədə Milli İstiqlal Müharibəsinin başladığı tarixlə əlaqədardır. Məhz bu tarixdə Mustafa Kamal Atatürkün Samsunda çıxışı ilə xalqın taleyini dəyişdirən istiqlal yolunda ilk addımlar atıldı. Ümidini itirmiş insanların qəlbində yenidən azadlıq arzusu alovlandı.

Birinci Dünya müharibəsindən sonra vəziyyəti gərginləşən Türkiyə çıxış yolları axtarmağa başlayırdı. Bu zaman Atatürkün siyasi arenaya gəlməsi qurtuluş üçün yol açır. Mayın 16-19-da İstanbul-Samsun səfəri qurtuluş üçün atılan ilk addımın simvolu kimi qəbul olunur. Atatürk İstanbuldan Samsuna etdiyi səfər zamanı əsgər olduğu üçün əsgər paltarında səfər edir. Ancaq Samsuna çatdıqdan bir neçə gün sonra sivil formaya keçir.

Atatürk Samsuna çatanda gördüyü mənzərə ürəkaçan deyildi. Şəhərdə İngiltərə ordusunun özbaşınalığı hökm sürürdü və xalq özünü müdafiə edə bilməyəcək vəziyyətdə idi. Atatürk bu səfər zamanı dayanmadan çıxış yolları axtarmağa başlayır. Bu səfər milli mübarizənin başlanğıcı olur və Atatürk bu günü gənclərə ithaf edir. Atatürk xalqı irəli aparanların və köhnəlmiş fikirlərə qarşı çıxanların gənc fikirli olduğunu gördüyünü bildirir.

“Gənc fikirli olmaq, doğrunu görmək və həqiqətən anlamaq deməkdir”, - deyə Atatürk bildirir. Milli mübarizəni daha sağlam başlamaq və davam etmək üçün gənc fikirlərin önəmli olduğunu əsas tutan lider, elə milli mübarizənin başlanğıcını da “gənc fikirlərə” yəni gənclərə həsr edir.

Bu möhtəşəm günün ən təsirli tərəflərindən biri də odur ki, Atatürk gəncləri yalnız gələcəyin sahibi kimi deyil, həm də ölkənin mədəniyyətini, azadlığını, milli dəyərlərini və müasir düşüncə tərzini qoruyacaq ən böyük qüvvə kimi görürdü. Ona görə də bu bayramı birbaşa gənclərə hədiyyə edərək onların enerjisini, yaradıcılığını və vətən sevgisini əbədi olaraq tarixə həkk etmişdi. Meydanlarda dalğalanan bayraqların rəngi, stadionlarda keçirilən möhtəşəm idman tədbirlərinin coşqusu, gənclərin üzündəki sevinc dolu təbəssümlər və marşların yaratdığı qürur hissi bayramı sadəcə təqvimdə qeyd olunan bir gün olmaqdan çıxarır.

Qeyd edək ki, bu günə qədər bayramın adı üç dəfə dəyişilib. 1935-ci ildə bayram Atatürk günü kimi tarixə düşsə də, 1938-ci ildə Atatürkün əmri ilə Gənclik və İdman Bayramı adı verilib. 1981-ci ildən isə bayram Atatürkü Anma, İdman və Gənclik bayramı adlandırılır.

Atatürkü Anma, Gənclik və İdman Bayramı hər il bir daha xatırladır ki, güclü gələcək yalnız savadlı, vətənpərvər, sağlam düşüncəli və məqsədyönlü gənclərin əllərində qurula bilər. Məhz buna görə də bu bayram keçmişin şərəfli xatirəsini yaşadaraq gələcəyin parlaq yollarını işıqlandıran ən mənalı və ən rəngarəng bayramlardan biri kimi böyük sevgi və ehtiramla qeyd olunur.

***Yeganə BAYRAMOVA***

# Qəlibləri sındıran qələm!

## Rəsul Rza poeziyası illər keçsə də köhnəlmir...



Onun şeirlərini oxuyarkən insan hiss edir ki, hər misranın arxasında sakit görünən, amma daxilində vulkan kimi alışıb yanan bir düşüncə dünyası dayanır. Bu dünyanın içində sevgi, həsrət, zamanın sərtliyi, insan vicdanının sonsuz mübarizəsi var. Ona görə Rəsul Rzanın yaradıcılığı illər keçdikcə köhnəlmir, əksinə, hər yeni dövr onu daha fərqli mənalarda yenidən kəşf edir.

Azərbaycan ədəbiyyatında modern düşüncənin, sərbəst poetik nəfəsin və yenilikçi ifadə tərzinin simvollarından biri olan Rəsul Rza öz qələmi ilə poeziyada qəlibləri sındırdı, klassik duyumla müasir təfəkkürü birləşdirdi. Oxucunu sadəcə şeir oxumağa deyil, həm də düşünməyə, suallar verməyə, həyatın görünməyən tərəflərini hiss etməyə çağırdı.

Bu gün görkəmli şair və dramaturqun anadan olmasından 116 il ötür. Xalq şairi 19 may 1910-cu ildə Göyçayda maarifpərvər ailədə doğulub. 1927-1937-ci illərdə Zaqafqaziya Kommunist Universitetində, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda, Moskva Millətlər İnstitutunda və Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsil alıb.

Görkəmli şair yaradıcılığa 1927-ci ildə Tiflisdə “Qığılcım” almanaxında dərc etdirdiyi ilk şeiri - “Bu gün” şeiri ilə başlayıb. “Gənc işçi” redaksiyasında çalışdığı vaxtda isə bu qəzetin səhifələrində “Avropanın ölüm çağı”, “Arş”, “Bir avqusta”, “Qara yelin xəbəri” və s. şeirləri dərc olunur. Rəsul Rza ilk şeirləri ilə mətbuatda çıxış etdiyi zamandan bəri onun şeirlərindəki ədəbi-bədii yeniliklər, yeni üslub və ədəbiyyata gətirdiyi modernist ruh hər kəsin diqqətini çəkmişdi.

1941-ci ilin axırlarında şair hərbi müxbir kimi Krıma gedir və onun burada yazdığı ilk əsər “Bəxtiyar” şeiri idi. “Vətən”, “İntiqam! İntiqam...” adlı şeir kitabları, “Ölməz qəhrəmanlar”, “Qəzəb və məhəbbət”, hekayə və oçerk topluları, “Vəfa” pyesi də həmin dövrdə işıq üzü görüb.

Rəsul Rzanın 1960-cı illərdə yazdığı “Rənglər” silsiləsinin ayrıca yeri var. Silsilə ilk dəfə 1962-ci ildə “Azərbaycan” jurnalında (№ 11) dərc olunub. Silsilənin bu nəşri 27 şeirdən ibarət idi və bu həcmdə şairin “Duyğular...düşüncələr” kitabına (1964) daxil edilib. Daha sonra şair “Qırmızının ümid çaları”, “Firuzəyi”, “Mavinin təsəlli çaları”, “Sürməyi”, “Saman sarısı” poetik mətnlərini yazdı və bu yeni şeirlər “Dözüm” kitabına (1965) daxil edildi. Bütövlükdə silsilə 33 şeirdən ibarətdir.

Maraqlıdır ki, Rəsul Rza yalnız şair deyildi. O, tərcüməçi, publisist və mədəniyyət xadimi kimi də böyük fəaliyyət göstərmişdi. Dünya ədəbiyyatının bir çox incilərini Azərbaycan oxucusuna çatdıraraq ədəbi körpülər qurmuşdu.

Rəsul Rzanın poeziyası bu gün də köhnəlmir. Çünki onun şeirlərində insan var - qorxuları, arzuları, sevgisi və zamanla mübarizəsi ilə birlikdə. O, oxucunu sadəcə şeir oxumağa yox, düşünməyə, hiss etməyə və həyata başqa gözlə baxmağa çağırırdı. Onun adı Azərbaycan ədəbiyyatında sadəcə bir şair adı deyil, bütöv bir düşüncə məktəbi, böyük bir mədəniyyət hadisəsi və əbədi yaşayan söz fenomenidir. Bəlkə də buna görə Rəsul Rza Azərbaycan ədəbiyyatında sadəcə bir şair deyil, bütöv bir düşüncə tərzidir...

***Yeganə BAYRAMOVA***

# Doqquz nömrəyə sığan böyük mübarizə

## “Bəhlul” jurnalının mətbuat tarixində rolu..

Azərbaycan mətbuat tarixində elə nəşrlər var ki, onların ömrü uzun olmayıb, lakin təsiri uzun illər boyu davam edib. Həmin nəşrlər cəmiyyətin düşüncə tərzində, satirik publisistikanın inkişafında, milli oyanış prosesində və ictimai fikrin formalaşmasında silinməz izlər buraxıb. Belə jurnallardan biri də cəmi altı ay fəaliyyət göstərməsinə baxmayaraq, dövrün ictimai-siyasi mənzərəsini kəskin satira, cəsarətli fikir və xalq dilinə yaxın üslub vasitəsilə ifadə etməyi bacaran “Bəhlul” jurnalı olub.

20-ci əsrin əvvəllərində Azərbaycanda maarif və mədəniyyətə maraq artırdı. Vətənin taleyi müxtəlif mədəni mərkəzlərdə təhsil almış, elmin yeni nailiyyətlərindən xəbərdar olan insanları maraqlandırırdı. Geriliyi, ətaləti görən həmin ziyalıların fəaliyyət sahəsi genişlənirdi. Eyni zamanda, Azərbaycan jurnalistləri demokratik mətbuatın gözəl ənənələrini böyük müvəffəqiyyətlə inkişaf etdirirdilər.

Həmin dövrlərdə Azərbaycanda



demokratik mətbuatın bayraqdarı olan “Molla Nəsrəddin”in təsiri ilə bir çox mətbu orqanlar nəşrə başlamışdı. Bu sırada “Bəhlul” jurnalının adını xüsusilə vurğulamaq lazımdır.

**6 ay ömür sürmüşdü**

Bu gün “Bəhlul” jurnalının 119 yaşı tamam olur. Adını Şərqin folklor qəhrəmanı Bəhlul Danəndədən götürən jurnal 1907-ci il mayın 19-da nəşrə başlayıb. Cəmi 6 ay ömür sürən və 9 nömrəsi işıq üzü görən bu jurnalın əsas hədəfi Çar Rusiyasının özbaşınalıqlarını, müsəlman əhalinin çətin həyat şəraitini işıqlandırmaq idi.

**“Molla Nəsrəddin”in bənzəri**

Həftəlik satirik jurnal Ələsgər Əliyevin redaktorluğu, Seyid Hüseyin əməkdaşlığı ilə “Kaspi” mətbəəsində nəşr edilirdi. Jurnalın səhifələrində zəhmətkeş kütlənin 1905-1907-ci illərdəki inqilabi mübarizəsi geniş işıqlandırılırdı. Dövrün ziyalıları, həmçinin “Dərdmənd”, “Bəhlul”, “İpləmə”, “Düdük” imzaları ilə yazdıqları felyeton və məqalələrdə çarizmin müsəlman əhaliyə qarşı ayrı-seçkilik siyasətini qınayır, xalqın savadlanmasına çalışırdılar.

“Bəhlul” forma etibarı ilə “Molla Nəsrəddin”ə bənzəyirdi. Jurnalda şəkillər, felyetonlar, satirik şeir, teleqraf xəbərləri, lüğət, tapmaca və başqa yazılar dərc olunurdu. Jurnalın nömrələrində “Molla Nəsrəddin”ə dair maraqlı materiallar verilmişdi. Hər iki jurnalın əməkdaşları arasında sıx əlaqə də yaranmışdı.

**Qabaqcıl ideyaların təbliği**

“Bəhlul”un nəşri də dəfələrlə dayandırılmışdı. Lakin irticanın təqibi “Bəhlul”u öz yolundan döndərə bilmirdi. Onun “Camaata” adlı müraciətində “Molla Nəsrəddin”in bütün islam aləmində ən qabaqcıl ideyaları təbliğ etdiyi və məhz bu səbəbdən mürtəce qüvvələrin onu dağıtmaq, məhv etmək istədiklərini bildirirdi. Jurnal “Oyanın! Oyanın!” - deyə xalqa xitabında “Molla Nəsrəddin”i qorumağa çağırırdı.

Jurnal “zərərli məsləkinə görə” nəşrini dayandırdı. “Kəlmiyyət”, “Şeypur”, “Zənbur”, “Rəhbər” satirik jurnalları kimi “Bəhlul” da az yaşadı...

Xatırladaq ki, 2020-ci ildə Azərbaycan mətbuatının 145 illiyi münasibətilə “Bəhlul” jurnalı kitab formatında çap olunub. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin elmi işçisi Dilbər Rzayeva tərəfindən ilk dəfə transfonelitersiya edilib. 146 səhifədən ibarət kitab “Bəhlul” satirik jurnalının ərəb qrafikalı əlifbadan transfonelitersiyasıdır.

Jurnalın qısa ömrü olsa da, Azərbaycan xalqının millət kimi formalaşmasında mühüm rol oynadı, milli özünüdərk prosesini hədəf tutaraq işıqlandırdı. Bütün bunlar da Azərbaycan jurnalistikasının sonrakı inkişafına güclü təkan vermişdi. “Bəhlul” jurnalı sübut etdi ki, mətbuatın gücü onun neçə il yaşamasında deyil, cəmiyyətə nə qədər təsir edə bilməsində, insanları düşündürməsində və həqiqəti hansı cəsarətlə ifadə etməsindədir.

***Yeganə BAYRAMOVA***

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Hacıqabul rayon təşkilatının sədri İsmayıl İbrahimova atası **HÜSEYN İBRAHİMOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5332
Sifariş: 661
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova